## "ORTA DƏHLİZİN ROLU ALMAN İQTİSADİYYATI ÜÇÜN VACİBDİR"

# BERLİN BAKIYA TƏŞƏKKÜR EDİR



Ştaynmayerin səfəri bir daha Bakının artan nüfuzundan, Avropa üçün əhəmiyyətindən xəbər verir.

- Frank-Valter Ştaynmayer Azərbaycana aprelin 2-də gəlib. Prezident İlham Əliyevlə həm təkbətək, həm də geniş tərkibdə görüşləri olub. Tərəflər qarşılıqlı maraq doğuran bir çox məsələlərlə bağlı müzakirələr aparıblar.

- Frank-Valter Ştaynmayer Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə tam dəstək nümayiş etdirdiyini bildirib: "Qarabağ Azərbaycandır, bu, rəsmi Berlinin birbaşa və aydın mövqeyidir".

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

5 APREL ŞƏNBƏ 2025 № 12 (4213) Qiyməti - 60 qəpik www.kaspi.az






### STRATEJİ ƏMƏKDAŞLIĞA GEDƏN YOL

- Mərkəzi Asiya dövlətləri aralarındakı problemləri həll etməkdədirlər. Bir zamanlar az qala müharibə həddində olan dövlətlər indi tarixi adlandırılan sazişlərə imza atırlar. Bu, üçüncü tərəfin iştirakı olmadan həyata keçirilir.

SƏHİFƏ 5-də



### TƏLƏBAT DA ARTIR, FAİZLƏR DƏ

- İstehlak kreditləri faizlərində artım var. Ekspertlərin bu məsələdə fikirləri fərqlənir. Bir qisim mövcud rəqəmlərin reallıqla uzlaşmadığını, digər qisim isə elə bir təhlükə yaratmadığını iddia edir.

SƏHİFƏ 13-də



### ŞƏRƏFLİ VƏ KƏDƏRLİ HƏYAT HEKAYƏSİ

- Dostları musiqinin ən müxtəlif janrlarında əsər yazan tanınmış bəstəkar Oqtay Rəcəbovun fədakar insan olduğunu deyirlər. O, narazılığı olanda da, xəstələnəndə də pozitivliyini qoruyub saxlayan insan olub.

SƏHİFƏ 15-də

## BAKIDA AVROPAYA QAZ İXRACI İLƏ BAĞLI MÜZAKİRƏLƏR

# QAZ TƏCHİZATI İLƏ BAĞLI YENİ PLANLAR



Prezident İlham Əliyev: "Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki biz artıq qazpaylama şəbəkəsinin yaradılmasında bəzi Avropa ölkələrində işləyirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir".

**CƏNUB QAZ DƏHLİZİ TAM GÜCÜ İLƏ İŞLƏYİR**

İlham Əliyev deyib ki, Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP həmin bu dəhlizin 3 ayrılmaz hissəsidir. "Onlar tam iş gücündə işləyir və biz onları genişləndirməliyik", - deyən dövlətimizin başçısı əlavə edib ki, əlbəttə, bunun üçün bizə maliyyələşmə lazımdır.

**AZƏRBAYCANIN AVROPA ÜÇÜN ƏHƏMİYYƏTİ**

Aİ-nin enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensen bildirib ki, Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycanla əməkdaşlıq Aİ-nin qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayır.

SƏHİFƏ 2-də

## Böyük zəfərin başlanğıcı - Aprel döyüşləri

# "ONLAR DÜŞMƏNƏ GÖZ AÇMAĞA İMKAN VERMİRDİLƏR"



- 2016-cı ilin aprel döyüşlərindən 9 il ötür. Həmin günlərdə Ermənistan silahlı birləşmələri Azərbaycan hərbçilərinin mövqelərini, həmçinin cəbhə xəttinə yaxın yaşayış məntəqələrimizi davamlı artilleriya atəşinə tutub.

- Aprelin 1-dən 5-nə qədər davam edən döyüşlər ordumuzun qələbəsi ilə nəticələnib. Həmin döyüşlərin iştirakçısı olmuş hərbçilərimizdən biri də ehtiyatda olan baş leytenant Elnur Xəlilovdur. O, 4 aprel 1993-cü ildə Goranboy rayonunda anadan olub. Elnur döyüşə xidmət etdiyi hərbi hissədən gedib.

SƏHİFƏ 6-da



### QƏRB DEMOKRATİYASININ QARA GÜNÜ

- Le Penin həbsi qaş düzəldən yerdə, gözü çıxarmaqdır. Makronun rəqibini neytrallaşdırması böyük başağrısına yol açıb: sağ cəbhənin liderinin mübarizədən uzaqlaşdırılması Jordan Bardellanın reytiqini yüksəldib.

SƏHİFƏ 4-də



### SÜNİ İNTELLEKT TƏHSİL PROSESİNDƏ

- Süni intellektin peşəkar mühitdə tətbiqi hər keçən gün artır. Bu, universitetlərdə də sözügedən sahə ilə bağlı yeni ixtisasların yaradılmasını zəruri edir. Ekspertlər bu sahədə gecikdiyimizi düşünürlər.

SƏHİFƏ 7-də



### "ŞOK"A DÜŞƏRƏK HƏYATINI İTİRƏNLƏR

- Həkimlər deyirlər ki, cərrahi prosedura məruz qalan hər bir şəxs, hətta yerli keyitmə ilə əməliyyat olunsa belə, müəyyən protokol üzrə müayinələrdən keçməlidir. Xəstə ciddi şəkildə araşdırılmalıdır.

SƏHİFƏ 14-də



Həqiqi hərbi xidmətlə bağlı dəyişikliklər

SƏHİFƏ 10-da



"Narkomaniyadan sağalmaq üçün "dib"i görməlisən"

SƏHİFƏ 8-9-da



Heyvan dağın başında, sahibkar Bakıda

SƏHİFƏ 11-də



Sürücülərin yaralı yeri

SƏHİFƏ 12-də



İnkişaf üçün əla fürsət

SƏHİFƏ 16-da

# QAZ TƏCHİZATI İLƏ BAĞLI YENİ PLANLAR




Prezident İlham Əliyev: “Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki biz artıq qazpaylama şəbəkəsinin yaradılmasında bəzi Avropa ölkələrində işləyirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir. Azərbaycan bunu etməyi planlaşdırır”.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Aprelin 4-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü iclasları keçirilib. Prezident İlham Əliyev tədbirdə çıxış edib.

Dövlət başçısı bildirib ki, bu gün heç vaxt olmadığı qədər enerji təhlükəsizliyi milli təhlükəsizliyin, ölkələrin təhlükəsizliyinin ayrılmaz bir hissəsidir və bu gün biz, həmçinin sənaye təhlükəsizliyi haqqında danışa bilərik. “Çünki sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları, gübrələr lazımdır. Azərbaycan isə xam neftin, təbii qazın, neft məhsullarının və gübrələrin istehsalçısı və ixracatçısıdır”, - Prezident İlham Əliyev qeyd edib. Onun sözlərinə görə, bu gün Azərbaycan təbii qazı 12 ölkəyə çatdırır. Onlardan 10-u Avropa ölkəsidir, səkkizi isə Avropa İttifaqının üzvləridir: “Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki biz artıq qazpaylama şəbəkəsinin yaradılmasında bəzi Avropa ölkələrində işləyirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir. Azərbaycan bunu etməyi planlaşdırır. Beləliklə, bizim qaz təchizatının coğrafiyası birmənalı olaraq genişlənəcək”.

### “CƏNUB QAZ DƏHLİZİ TAM GÜCÜ İLƏ İŞLƏYİR”

Prezident bildirib ki, hazırda Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP həmin bu dəhlizin 3 ayrılmaz hissəsidir. “Onlar tam iş gücündə işləyir və biz onları genişləndirməliyik”, - deyən dövlətimizin başçısı əlavə edib ki, əlbəttə, bunun üçün bizə maliyyələşmə lazımdır. “Burada biz vacib bir nöqtəyə gəlib çıxırıq. Biz dəfələrlə bunu qeyd etdik ki, beynəlxalq maliyyə təsisatları, o təsisatlar ki, məhz faydalı qazıntılar üçün layihələrin maliyyələrinin dayandırılması qərarına gəlmişdilər, bəlkə də bu siyasəti dayandırsınlar”, - deyə Prezident vurğulayıb.

## “Biz yeni yataqlardan hasilatın başlamasını gözləyirik”

Dövlət başçısının sözlərinə görə, “Azəri-Çıraq-Günəşli”, “Abşeron” və “Şahdəniz” bir çox ölkələrin enerji təhlükəsizliyinə töhfə verir: “Bir neçə ildən sonra bir çox digər neft-qaz yataqlarının da istismarına başlanacaq ki, onlarla bağlı müqavilələr artıq imzalanıb, işçi proqram həyata keçirilir”. Prezident bildirib ki, boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənubi Qafqaz Boru Kəməri bütün iştirakçılarla birlikdə görülmüş işlərin nəticəsidir. “Biz əmin olmalıyıq ki, Avropada bizim təbii qaza ehtiyac olacaqdır. Yəni, biz əmin olmalıyıq ki, bir neçə il üçün bazar olacaq”, - Prezident İlham Əliyev deyib. O əlavə edib ki, əgər belə bir təminat olmasa, onda sərmayə yatırmaq mümkün olmayacaq: “Beləliklə, təbii qazın böyük bir qıtlığı yaranacaq. Bizim ehtiyatlar məlumdur. Biz yeni yataqlardan hasilatın başlamasını gözləyirik”.

### “HİDROENERJİ POTENSİALIMIZI ARTIRIRIQ”

Prezident qeyd edib ki, Azərbaycan enerji təhlükəsizliyində tərəfdaşlıq üçün daha mühüm rol oynayacaq. Bu gün artıq investorlarımızla imzalanmış müqavilələrin olduğunu söyləyən dövlət başçısı vurğulayıb: “Bu, Günəş və Külək enerji stansiyalarına aid olan müqavilələrdir ki, 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi təmin edəcək. Qeyd edirəm ki, nəticədə xeyli təbii qaza qənaət etmək imkanı yaranacaq ki, hazırda həmin qaz ölkə daxilində elektrik enerjisinin istehsalı üçün istifadə olunur və ixraca yönəldiləcək. Biz, eyni zamanda, öz investisiyalarımızla hidroenerji potensialımızı artırırıq, xüsusən də Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur və Qarabağ bölgələrində”.



## “Ticarət sahəsində əməkdaşlığımızın həcmini artırmaq istəyirik”

Tədbirdə çıxış edən Avropa İttifaqının (Aİ) enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensen bildirib ki, Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycanla əməkdaşlıq Avropa İttifaqının qaz təchizatının şaxələndirilməsində və Rusiya qazından asılılığın azaldılmasında mühüm rol oynayır. O, Azərbaycandan kəmərlə tədarük edilən qazın növbəti illərdə Aİ-yə xalis sıfıra keçid prosesində mühüm rol oynayacağına ümidvar olduğunu qeyd edib: “Bu səbəbdən ticarət sahəsində əməkdaşlığımızın həcmini artırmaq istəyirik. Eyni zamanda, həmin dəhlizin əməliyyatlarına nəzarət, qaz sektorunda təkmilləşdirmə işlərinin aparılması, enerji təhlükəsizliyinin gücləndirilməsi və elektrik enerji şəbəkəsinin inkişafı bizim əsas məqsədlərimiz arasındadır. Lakin fəaliyyətimiz yalnız böhranın idarə edilməsi ilə məhdudlaşmır - biz gələcək üçün strateji yollar müəyyən etməliyik.




Bu baxımdan, Cənubi Qafqaz ilə Avropa İttifaqı arasında yaşıl enerji dəhlizinin inkişafı bizim üçün prioritet məsələlərdən biridir. Bu sahədə müxtəlif ideyalar, texnologiyalar və marşrutlar mövcuddur. İndi əsas vəzifəmiz bu perspektivli ideyaları bir araya gətirərək yaşıl enerji dəhlizinin səmərəli fəaliyyətini təmin etməkdir. Bu istiqamətdə böyük potensial və əməkdaşlıq ruhu mövcuddur və hər iki tərəf bu təşəbbüsdə maraqlıdır”.

### AZƏRBAYCAN BÖYÜK ENERJİ EHTİYATLARINA MALİKDİR

ABŞ Dövlət Departamentinin Enerji Resursları İdarəsinin baş müşaviri Erik Ceykobs isə deyib ki, Cənub Qaz Dəhlizi layihəsinin qeyd olunmasında iştirak etmək böyük qürur mənbəyidir: “Layihə Azərbaycanın enerji bolluğunu yalnız ölkənin deyil, bütün regionun rifahı üçün istifadəyə imkan verir. Azərbaycan artıq onlarla ölkəyə etibarlı təchizatçıya çevrilib”. ABŞ rəsmisinin sözlərinə görə, Birləşmiş Ştatlar kimi, Azərbaycan da böyük enerji ehtiyatlarına malikdir: “Prezident Tramp enerjini Amerikanın üstünlüyünün təməli və təhlükəsizliyinin açarı kimi qiymətləndirib. Ölkənizin enerji bolluğundan iqtisadi imkanlar yaratmaq, səhiyyə və təhsili yaxşılaşdırmaq, vətəndaşların həyatını inkişaf etdirmək hər bir yaxşı hökumətin öhdəliyidir”.

E.Ceykobs vurğulayıb ki, təbii qaz hər bir ölkə üçün etibarlı, əlçatan və təhlükəsiz enerji mənbəyidir və bu, gələcək onilliklərdə də belə qalacaq.



# BERLİN BAKIYA TƏŞƏKKÜR EDİR

Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Bakıya rəsmi səfəri mövcud beynəlxalq şərtlər daxilində bir daha Bakının artan nüfuzundan, Avropa üçün mühüm strateji əhəmiyyətindən xəbər verir. Enerji təhlükəsizliyi və alternativ nəqliyyat marşrutları baxımından Azərbaycan Qərb üçün əhəmiyyətli açar dövlət rolunu oynayır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Müstəqillik tarixində ilk dəfə olaraq, Avropa İttifaqının ən böyük dövlətlərindən olan Almaniya Prezidenti Azərbaycana rəsmi səfər edib. Bu səfər mövcud beynəlxalq şərtlər daxilində bir daha Bakının artan nüfuzundan, Avropa üçün mühüm strateji əhəmiyyətindən xəbər verir. Xüsusilə enerji təhlükəsizliyi və alternativ nəqliyyat marşrutları baxımından Azərbaycan Qərb üçün çox əhəmiyyətli açar dövlət rolunu oynayır. Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Bakıya rəsmi səfəri çərçivəsində azərbaycanlı həmkarı İlham Əliyevlə keçirilən görüşlərdə səsləndirdiyi fikirlər də bunu bir daha təsdiqləyir.

### "TİCARƏT DÖVRİYYƏSİ ŞAXƏLƏNDİRİLMƏLİDİR"

Qeyd edək ki, Frank-Valter Ştaynmayer Azərbaycana aprelin 2-də gəlib. Prezident İlham Əliyevlə həm təkbətək, həm də geniş tərkibdə görüşləri olub. Tərəflər qarşılıqlı maraq doğuran bir çox məsələlərlə bağlı müzakirələr aparıblar. Mətbuata birgə bəyanat zamanı Prezident İlham Əliyev bu səfərin qarşılıqlı əlaqələrə yeni müsbət təkan verəcəyinə əminliyini ifadə edib: "İqtisadi sahədə əldə edilmiş nəticələr bizi təbii olaraq ruhlandırır. Çünki bu ilin yanvar-fevral aylarında bizim ticarət dövriyyəmiz təxminən üç dəfə artıb. Bunun əsas səbəbi Azərbaycandan Almaniyaya ixrac edilən xam neftin həcminin artması olmuşdur. Ona görə biz hesab edirik ki, gələcək illərdə öz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı daha fəal addımlar atmalıyıq".

### "YENİ EV TAPŞIRIQLARIMIZ VAR"

Prezident Frank-Valter Ştaynmayer isə qeyd edib ki, azərbaycanlı həmkarı ilə strateji mövzularda da müzakirə aparıblar: "2022-ci ildə Azərbaycan Almaniyada böyük rol oynayıb. Rusiyadan aldığımız qaz təchizatında dayanma baş verdiyi zaman Azərbaycan üzərinə böyük məsuliyyət götürdü və mən buna görə Sizə çox təşəkkür edirəm. Sizin sözlərinizdən elə başa düşdüm ki, burada qaz ilə yanaşı, infrastrukturun genişləndirilməsinə də ehtiyac var. Beləliklə, infrastrukturun yaxşılaşdırılması üzərində Avropada işləməliyik. Çünki o, hələ də kifayət həcmdə deyil. Bir sözlə, bu görüşlərdən sonra yeni ev tapşırıqlarımız da var".

## "Orta Dəhlizin rolu alman iqtisadiyyatı üçün vacibdir"

Almaniya Prezidenti Azərbaycanın tranzit rolunun əhəmiyyətini xüsusi qeyd edib: "Öz növbəsində həmin amil dünyanın birləşməsinə əsas ola bilər. Biz iqtisadi-ticari münasibətlərimiz haqqında danışdıq. Yalnız Mərkəzi Asiya ilə deyil, həm də Uzaq Şərqlə, o cümlədən Cənub-Qərbi Asiya və Çinlə Almaniyanın ticarət əlaqələrində ölkənizin rolu var. Bilirik ki, hazırkı mövcud yolların imkanları məhduddur. Ölkənizdən keçən yollar, həmçinin Orta Dəhlizin rolu alman iqtisadiyyatı üçün vacibdir, yaxşı perspektivdir və bu, daha maraqlı olacaq".

### ERMƏNİSTAN SÜLH MÜQAVİLƏSİNİ İMZALAMAQ İSTƏYİRSƏ...

Dövlət başçılarının müzakirələrində əsas diqqət yetirilən məqamlardan biri Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları olub. Prezident İlham Əliyev jurnalistlərin suallarını cavablandırarkən bir daha rəsmi Bakının sülh ilə bağlı şərtlərini bəyan edib. Onun sözlərinə görə, bu günə qədər sülh müqaviləsinin mətni tam razılaşdırılıb. Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürməyib: "Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri biz uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Nədən ibarətdir bu? Birincisi, ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bunun da məntiqi ondan ibarətdir ki, 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun mandatı Qarabağ münaqişəsinin həlli idi. Qarabağ münaqişəsini Azərbaycan özü həll edib - BMT Nizamnaməsi əsasında və beynəlxalq hüquq çərçivəsində. Münaqişə həll olunduğu üçün və Ermənistan rəsmən Qarabağı Azərbaycan torpağı kimi tanıdığı üçün ATƏT-in Minsk qrupunun de-yure fəaliyyətinə heç bir əsas qalmamışdır. Onsuz da de-fakto bu qrup fəaliyyət göstərmirdi. Ermənistanın buna razı olmaması bizdə haqlı olaraq şübhələr doğurur. Görəsən, nə üçün? Bəlkə Ermənistan bizə qarşı yenə də ərazi iddiası ilə çıxış etmək istəyir?"



Prezident əlavə edib ki, ikinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır: "Ermənistan konstitusiyasında Ermənistanın müstəqillik aktına istinad var. O, konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin edildəndən sonra sülh müqaviləsini imzalamaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər doğrudan da Ermənistan sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir".

## "QARABAĞ AZƏRBAYCANDIR, BU, RƏSMİ BERLİNİN BİRBAŞA VƏ AYDIN MÖVQEYİDİR"

Məsələ ilə bağlı Almaniya Prezidentinin də mövqeyi maraqlıdır. O, Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə tam dəstək nümayiş etdirdiyini bildirib: "Qarabağ Azərbaycandır, bu, rəsmi Berlinin birbaşa və aydın mövqeyidir". Frank-Valter Ştaynmayer qeyd edib ki, bu cür münaqişənin həlli, eləcə də tərəflər arasında qarşılıqlı etimadın bərpası üçün xeyli vaxt və səy tələb olunur: "Hazırkı dövrdə razılığı əldə etmək çox böyük işdir. Ümidvaram ki, həmin müqaviləyə əlavə olaraq cənab Prezident Əliyevin indicə qeyd etdiyi şərtlər üzərində də razılaşma olacaq".

Beləliklə, bu həftə baş tutan Bakı-Berlin müzakirələri mövcud beynəlxalq konyunkturada ölkəmizin həm Avropa, həm də bölgəmiz üçün mühüm əhəmiyyət daşıyan məsələlərlə bağlı mövqeyinin qarşı tərəfə çatdırılmasında xüsusi əhəmiyyət daşıyır. Bu səfər həm də Bakı-Brüssel əməkdaşlığının yeni istiqamətlərini müəyyənləşdirəcək.

# QƏRB DEMOKRATİYASININ QARA GÜNÜ



**Le Penin həbsi qaş düzəldən yerdə, gözü çıxarmaqdır. Makronun ideoloji rəqibini neytrallaşdırması daha böyük başağrısına yol açıb: sağ cəbhənin liderinin mübarizədən uzaqlaşdırılması ifrat sağçı namizədin - Jordan Bardellanın reytinqini kəskin şəkildə yüksəldib.**



RÜSTƏM QARAXANLI

Paris məhkəməsinin Fransanın "Milli birlik" partiyasının lideri Marin Le Peni korrupsiyada suçlayaraq dörd illik həbs cəzasına və beş il ərzində siyasətlə məşğul olma qadağasına məhkum etməsi tək Fransada deyil, ümumiyyətlə, Qərbi Avropada avtoritarizm təzahürlərinin dərin kök atmasının bariz göstəricisidir. Le Pen Fransada hazırkı sistemə rəqib olan ən güclü sima idi və onun növbəti prezident seçkilərinin qalibi olacağı gözlənilirdi. Le Pen Qərbi Avropada tənəzzüldə olan liberal demokratiya ideologiyasına alternativ olan nümayəndələrdən biridir. İttihamçılara görə, M. Le Pen 2009-cu ildən etibarən "saxta müqavilələr" əsasında dövlət vəsaitinin mənimsənilməsi mexanizminin mərkəzi fiqurlarındandır. Özü də bu korrupsiya sxeminin yaradıcısı onun atası, "Milli birlik" partiyasının sabiq lideri Jan-Mari Le Pen olub. İddianın həqiqətə nə qədər yaxın olub-olmaması məhkəmə mövzusudur, ancaq proses xanım Le Penin dediyi kimi, "demokratiyanın qara günü"dür. Özü də tək Fransa deyil, bütün Avropa üçün...

**FRANSADA RUMINİYA SSENARİSİ**

Xanım Le Penin məhz indi - seçkilər ərəfəsində siyasi mübarizədən kənarlaşdırılması Fransanın siyasi palitrasında hakim olan qüvvələrin ona alternativ sayıla biləcək çapda namizədə malik olmaması reallığından irəli gəlir. Makron bu yolla silahdaşlarına özündən sonra siyasi olimpə yüksəlmə yolunu təmizləyir. Onun hazırkı siyasətinin davamı tək özü və mənsub olduğu düşərgənin ehtiyaclarından irəli gəlmir. Bu, Qərbi Avropada kök salmış mövcud sistemin sifarişidir.

Le Penin siyasətdən uzaqlaşdırılması "qoca qitə"də son dövrdə izlənən ilk və güman ki, son belə hadisə deyil. Bir müddət öncə Brüsselin təzyiqləri nəticəsində Rumıniyada keçirilən prezident seçkisinin nəticələri və birinci turda qalib gəlmiş Kelin Corceskunun qələbəsi ləğv edilib. Bu azmış kimi onun yenidən namizəd olmasına qadağa qoyulub. Corcesku da sağ cəbhəni təmsil edən siyasətçi idi, Aİ konyunkturasının standartlarına cavab vermirdi və onun qurumun şərq cinahının əsas ölkələrindən, Ukraynadakı savaşa ən yaxında olan dövlətlərdən biri kimi Rumıniyanın başına gəlməsi Brüsselin geosiyasi planlarına əngəllər yarada bilərdi. Odur ki, ən asan üsula əl atıldı - Corceskunu Rusiya ilə əməkdaşlıqda suçlayıb siyasi mübarizədən kənarlarşdırmaq yolu seçildi.

## VAŞİNQTONUN DEMOKRATİYA İRADI

Avropada izlənənlər ABŞ-nin tənqidləri fonunda xüsusilə aktual təsir bağışlayır. Xatırlatmaq yerinə düşər ki, son Münhen Təhlükəsizlik Konfransında ABŞ-nin vitse-prezidenti Cey Di Vens Avropa dövlətlərini sərt tənqid edərək onları demokratik prinsiplərdən uzaqlaşmaqda suçlamışdı.

Gözlənildiyi kimi, Le Penin ləkələnib siyasətdən kənarlaşdırılması da Vaşinqtondan reaksiyasız ötüşmədi. Məsələyə Prezident Donald Trampın şəxsən münasibət bildirməsi və Le Penin Fransada prezidentliyə aparıcı namizəd olduğunu qeyd etməsi ABŞ ilə Avropa arasındakı fikir ayrılığı, siyasi uçurumun dərinliyinin növbəti təzahürüdür.

**ÖZ TƏLƏSİNƏ DÜŞƏN AVROPA İTTİFAQI**

Le Penin siyasi rəqabət səhnəsindən uzaqlaşdırılması Qərbi Avropada mövcud siyasi konyunkturun ona alternativ olan istənilən siyasi hərəkatın ən qaba yolla olsa belə, susdurulmasına hazır olduğunu göstərir. Adətən seçki yolu ilə digər dövlətlərin həyatına müdaxilə yolunu tutan Aİ indi özü öz tələsinə düşüb. Ötən il Gürcüstanda keçirilmiş seçki ərəfəsi və sonrasında Tbilisi ilə bütün əlaqələrini dondurmuş, onu sanksiyalarla hədələyən, qanuni hakimiyyəti zorakı yolla devirməyə çalışan Qərbi Avropa indi öz daxilində olan müxalif təzahürləri eyni üsullarla boğmaq kursunu həyata keçirir.

Azərbaycanı illər boyu "demokratiya və insan hüquqları" bəhanəsi ilə ləkələməyə çalışan, işğalçı Ermənistanı aşkar müdafiə edən Fransada siyasi rəqiblər saxta dəlilərlə mübarizədən çıxdaş edilirlər. Siyasət şəxsi simpatiya və antipatiyanı sevmir. Ola bilməz ki, bir dövlətin ərazi bütövlüyünü kobud şəkildə pozub onun torpaqlarında fəaliyyət göstərən separatçı bölgəyə qanunsuz yollarla ağır çəkili siyasət adamlarını göndərib həm ikitərəfli münasibətləri, həm də beynəlxalq hüququ tapdaq altına salasan, sonra isə öz daxilində demokratik olasan.

## QAŞ DÜZƏLTMƏK İSTƏYƏN MAKRON...

Məhkəmə qərarını şərh edən Le Penin sözlərinə görə, Fransadakı hakim sistem "nüvə bombasının buraxılış düyməsini basıb". Bu o deməkdir ki, Le Penin həbsi sıradan bir hadisə deyil və davamlı siyasi gərginliyin başlanğıcıdır. Çox güman ki, Le Penin anons etdiyi siyasi gərginlik yalnız Fransanın siyasi həyatı ilə məhdudlaşmayacaq. Trampın ABŞ-də hakimiyyətə gəlişi ilə Avropada start verilən mərkəzdənqaçma təzahürləri bütün qitənin siyasi həyatına damğa vuran prosesə çevrilməkdədir. Bu gərginlik özünü Fransa, Almaniya, Niderland kimi dövlətlərin daxili siyasi həyatında göstərməyə bilməz. Almaniyada hakimiyyət dəyişikliyi, Fransada Makronun reytinqinin yerlərdə sürünməsi bunun əyani sübutudur. Le Penin həbsi isə qaş düzəldən yerdə, gözü çıxarmaqdır. Makronun ideoloji rəqibini neytrallaşdırması daha böyük başağrısına yol açıb: sağ cəbhənin liderinin mübarizədən uzaqlaşdırılması ifrat sağçı namizədin - Jordan Bardellanın reytinqini kəskin şəkildə yüksəldib. Əgər bu gün prezident seçkiləri keçirilərsə, fransızların 36 faizi Bardellaya səs verməyə hazırdır. Bu dərəbəylikdən xilası Makron kimi qeyri-ciddi siyasətçi deyil, möhkəm və sərt lider təmin edə bilər. Yelisey sarayında oturanlar öz qazdıqları quyuya düşüblər...

# STRATEJİ ƏMƏKDAŞLIĞA GEDƏN YOL

Mərkəzi Asiya ölkələri bütün problemləri bir kənara qoyub güc mərkəzinə çevrilməyə çalışırlar. İmzalanan sənədlər də bunu deməyə əsas verir.



AZƏR NURİYEV

Mərkəzi Asiya dövlətləri aralarındakı problemləri həll etməkdədirlər. Bir zamanlar az qala müharibə həddində olan region dövlətləri indi tarixi adlandırılan sazişlərə imza atırlar. Ən əsası, bu münasibətlər üçüncü tərəfin iştirakı olmadan həyata keçirilir.

### XÜCƏND BƏYANNAMƏSİ - STRATEJİ ƏMƏKDAŞLIĞA GEDƏN YOL

Beləliklə, Daşkəndlə Bişkek arasında tarixi sərhəd razılaşmasının ardınca, Tacikistan, Qırğızıstan və Özbəkistan prezidentləri Emoməli Rəhmon, Sadır Japarov və Şavkat Mirziyoyev üç ölkənin sərhədlərinin kəsişmə nöqtəsi haqqında müqavilə və əbədi dostluq haqqında Xücənd bəyannaməsini imzalayıblar.

### SOVETİN QANLI MİRASI

Mərkəzi Asiyanın üç respublikasının sərhədlərinin kəsişməsi Fərqanə vadisində - Tacikistanın Soqd, Özbəkistanın Fərqanə və Qırğızıstanın Batken vilayəti arasındakı nöqtədə yerləşir. Bu ərazidə ilk inzibati sərhədlər sovet hakimiyyəti tərəfindən 1920-1930-cu illərdə təsərrüfat və etnoqrafik reallıqlar nəzərə alınmadan cızılmışdı. Ümumi tanınmış, hüquqi təsbit edilmiş xətt mövcud deyildi. Qırğızıstan, Tacikistan və Özbəkistan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra sərhədin demarkasiyası haqqında sazişin və dəqiq işarələrin olmaması xəritələrdə mübahisəli sahələrin yaranmasına gətirib çıxardı. Regionda səkkiz anklavın mövcudluğu vaxtaşırı silahlı münaqişələrə səbəb olurdu.

Özbəkistan və Qırğızıstan sərhədin bütün mübahisəli sahələrini 2021-ci ilin martında razılaşdıra biliblər. Paralel olaraq Daşkənd və Düşənbə arasında sərhəd məsələləri üzrə dialoq aparılırdı. 2016-cı ildə Özbəkistanda Şavkat Mirziyoyevin hakimiyyətə gəlməsi ilə danışıqlar aktivləşdi və iki ölkənin sərhədlərinin delimitasiyası 2018-ci ildə başa çatdı, bundan sonra xüsusi qruplar demarkasiyaya başladılar.



## ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRƏCƏKLƏR

Sənədlərin imzalanması Tacikistanın şimalında Soqd vilayətinin inzibati mərkəzi olan Xücənddə üç dövlət liderinin ilk sammitində baş tutub. Əsas problemin həlli fonunda dövlət başçıları üçtərəfli əməkdaşlığı genişləndirəcəklərinə söz verərək Əbədi Dostluq haqqında Xücənd Bəyannaməsini imzalayıblar. Liderlər Soqd, Batkən və Fərqanə vilayətlərinin sərhədində Tacikistan, Qırğızıstan və Özbəkistan xalqlarının dostluğunu simvolizə edən "Dostluq kompleksi"ni də açıblar. Həmçinin 2024-cü ilin aprelində imzalanmış Özbəkistan və Tacikistan arasında müttəfiqlik müqaviləsi də qüvvəyə minib. Özbəkistanın Qırğızıstanla da oxşar müqaviləsi var. Tacikistan və Qırğızıstan öz enerji sistemlərini birləşdiriblər. İki dövlətin başçıları CASA-1000 layihəsi çərçivəsində Suqd-Datka elektrik ötürücü xətlərini də işə salıblar.

Sərhəd məsələsinin tənzimlənməsi həm region, həm də Tacikistan və Qırğızıstan arasındakı münasibətlər üçün çox əhəmiyyətli hadisədir. Xücənddə aparılan danışıqların və əldə edilən razılaşmaların ikinci mühüm əhəmiyyəti odur ki, indi tərəflər əməkdaşlığı daha intensiv və problemsiz inkişaf etdirə biləcəklər.

### MİRZİYOYEVİN ƏN BÖYÜK UĞURU

Bəllidir ki, Mərkəzi Asiya mürəkkəb geosiyasi konfiqurasiyaya malik, nüvə dövlətləri ilə həmsərhəd olan və müxtəlif güc mərkəzlərinin maraqlarının kəsişməsində yerləşən bir regiondur. Fərqanə vadisi isə regionun bütün çoxşaxəliliyini və problemlərini özündə cəmləşdirir. Nisbətən kiçik ölçülərinə baxmayaraq, vadi əsrlər boyu toplanmış çoxillik problemlərin yükünü daşıyır. Regionun mürəkkəb tarixi, sovet və postsovet dövrlərində üç respublika arasında ərazi bölgüsü ilə ağırlaşdırılaraq, SSRİ-nin dağılmasından sonra bir sıra ciddi nəticələrə - su mübahisələrindən sənayenin dağılmasına, işsizliyə və sürətli demoqrafik artıma qədər gətirib çıxardı. Bundan əlavə, Fərqanə vadisi etnik münaqişə ocağı idi.

Dönüş nöqtəsi prezident Mirziyoyevin 2017-2018-ci illərdə Mərkəzi Asiyada qonşuluq və öz niyyətlərini konkret hərəkətlərlə təsdiqləməsi ilə başlayıb. Özbəkistan 2023-cü ildə Qırğızıstanla sərhəd delimitasiyasını tamamlayıb, əhəmiyyətli ərazi güzəştlərinə gedərək, bununla da regional sabitlik naminə kompromislərə hazır olduğunu nümayiş etdirib. Özbəkistanın nümunəsini Tacikistan izləyib, Qırğızıstanla bütün sərhəd məsələlərini həll edib.



### VADİNİN İNKİŞAFI ÜÇÜN KOMPLEKS PROQRAM

Hazırda Fərqanə vadisinin inkişafı üçün kompleks proqram lazımdır. Bu, yaxın illər üçün başlanılan prosesin məntiqi davamı və mühüm nəticəsi olacaq.

Ali İqtisadiyyat Məktəbinin aparıcı eksperti Darya Rekeda hesab edir ki, "Fərqanə formatı" tək Tacikistan, Özbəkistan və Qırğızıstan üçün deyil, bütün Mərkəzi Asiya regionu üçün mühüm əhəmiyyət kəsb edir. "Bu, investisiya planı və Avrasiya məkanında təhlükəsizliyin təmin edilməsi məsələləri ilə bağlıdır. Narkotik, silah ticarəti və müxtəlif radikal elementlərin hərəkəti keçən sərhəd üzərində nəzarət problemləri həmişə aktual olub. Fərqanə vadisinin regionları arasında "qara tunellər" kateqoriyasına daxil olan malların qaçaqmalçılığı üçün yeraltı keçidlərdən və tunellərdən istifadə halları məlumdur. Fərqanə vadisi məkanı, həmçinin onun mürəkkəb relyefi üzərində nəzarətin və sıx müşahidənin gücləndirilməsi bütün nöqteyi-nəzərdən təhlükəsizlik üçün vacibdir", - deyə Darya Rekeda bildirib.

Görünən odur ki, Mərkəzi Asiya ölkələri problemləri bir kənara qoyub güc mərkəzinə çevrilməyə çalışırlar. İmzalanan sənədlər də bunu deməyə əsas verir. Ən əsası isə odur ki, ölkələr arasında vahid mövqe və fikir birliyi var. Ümid etmək olar ki, Mərkəzi Asiya ölkələri yaxın gələcəkdə güc mərkəzi olacaq. Bu, həm də Türk Dövlətləri Təşkilatının inkişafı deməkdir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# “ONLAR DÜŞMƏNƏ GÖZ AÇMAĞA İMKAN VERMİRDİLƏR”

Aprel döyüşlərinin iştirakçısı, “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə”, “Hərbi xidmətlərə görə”, “İgidliyə görə” medalları ilə təltif olunan baş leytenant Elnur Xəlilov o günləri fəxrlə xatırlayır.

FUAD ABASOĞLU

Böyük zəfərin başlanğıcından - 2016-cı ilin aprel döyüşlərindən 9 il ötür. Həmin günlərdə Ermənistan silahlı birləşmələri Azərbaycan hərbçilərinin mövqelərini, həmçinin cəbhə xəttinə yaxın yaşayış məntəqələrimizi davamlı artilleriya atəşinə tutub. Bunun ardınca düşmən mövqelərimizə soxulmağa çalışıb. Amma bütün bu cəhdlər uğursuz olub.

Aprelin 1-dən 5-nə qədər davam edən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnib. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, eyni zamanda Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər azad olunub.

### “LƏLƏTƏPƏ YÜKSƏKLİYİ İSTİQAMƏTİNDƏ DÖYÜŞLƏRƏ CƏLB OLUNDUQ”

Həmin döyüşlərin iştirakçısı olmuş hərbçilərimizdən biri də ehtiyatda olan baş leytenant Elnur Xəlilovdur. O, 4 aprel 1993-cü ildə Goranboy rayonunda anadan olub. 2010-cu ildə Qızılhacılı qəsəbəsindəki 1 saylı tam orta məktəbi, 2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. Elə həmin ilin iyulunda həqiqi hərbi xidmətə yollanıb. Əvvəlcə Beyləqandakı “N” saylı hərbi hissədə xidmət edib. Ardınca Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit hazırlığı kursunu bitirib və leytenant rütbəsində Beyləqandakı “N” saylı hərbi hissədə xidmətini davam etdirib. 2016-cı ilin aprel döyüşlərinə də xidmət etdiyi hərbi hissədən cəlb olunub.

E.Xəlilov bizimlə söhbətində bildirib ki, bir neçə gün davam edən döyüşlər Azərbaycan Ordusunun gücünü, Vətən sevgisini açıq şəkildə nümayiş etdirib: “Lələtəpə yüksəkliyi istiqamətində döyüşlərə cəlb olunduq. İlk dəfə idi ki, real döyüşlərin iştirakçısı olurdum. Paralel olaraq, şəhidlərin, yaralıların təxliyəsini həyata keçirirdik. Azərbaycan əsgərinin qorxmazlığını, cəsurluğunu mən o zaman gördüm. Təsəvvür edin ki, təxliyə olunan yaralı əsgər onu səngərdən çıxarmağımızı istəmirdi. Hər bir əsgər şəhid olan hərbçi yoldaşının qisasını almağa çalışırdı. Xüsusi təyinatlılarımızın fəallığını xüsusilə qeyd etmək istəyirəm. Onlar düşmənə göz açmağa imkan vermirdilər”.





### ORDUMUZUN ƏKS-HÜCUMU DÜŞMƏNİ ÇƏTİN DURUMA SALIB

E.Xəlilov söyləyib ki, Aprel döyüşlərində düşmənin başlıca məqsədi Gədəbəy istiqamətindəki yüksəklikləri ələ keçirmək olub: “Bununla onlar həm ön xətdəki birləşmələrimiz üzərində strateji üstünlüyə nail olmaq, həm də yaşayış məntəqələrimizə real təhlükə yaratmaq, kəndlərimizi daim müşahidə altında saxlamaq istəyirdilər. Lakin Ordumuzun uğurlu əks-hücumu sayəsində düşmənin niyyəti baş tutmadı. Əksinə, Lələtəpə yüksəkliyinə nəzarəti bərpa edərək, düşmən postlarının aydın müşahidə olunması üçün əlverişli mövqe tutduq. Hərbi nöqteyi-nəzərindən bu, olduqca vacib idi. Çünki düşmən postu daim müşahidə olunmalıdır. Bu, bizim hərbi mövqelərimizə, yaşayış məntəqələrimizə qarşı ola biləcək hər hansı təxribatın, hücum planının əvvəlcədən müəyyən edilməsi və qarşısının alınmasında mühüm əhəmiyyət daşıyırdı. Tək Lələtəpəni deyil, digər strateji yüksəkliklərə, hərbi təminat yollarına nəzarəti bərpa etməklə, o zaman qarşımıza qoyduğumuz hədəflərə çatdıq”.



## SENTYABRIN 27-DƏN OKTYABRIN 13-NƏ QƏDƏR DAVAM EDƏN DÖYÜŞ YOLU

Aprel döyüşlərindən sonra Beyləqandakı hərbi hissəyə qayıdan E.Xəlilov 2020-ci ilin 44 günlük Vətən müharibəsinin də iştirakçısı olub. Sentyabrın 27-dən oktyabrın 13-nə qədər bir çox döyüşlərdə düşmənə qarşı mərdliklə vuruşub: “Aprel döyüşlərindəki təcrübəm nəzərə alınaraq, İkinci Qarabağ müharibəsinə də cəlb olunmuşdum, həmlə qrupunun komandiri idim. Tabeliyimdəki minaatan batareyası Ordumuzun irəliləməsi üçün düşmən mövqelərini davamlı atəşə tuturdu. Talış kəndi, Suqovuşan istiqamətlərində döyüş tapşırıqlarını yerinə yetirirdik. Talış kəndinə daxil olan ilk üç bölükdən birinin komandiri olmağımla bu gün də qürur duyuram”.

E.Xəlilov yaralanmasından da söhbət açıb: “Oktyabrın 13-də kəşfiyyat məlumatı əldə etdik. Ermənilərin xüsusi təyinatlıları bizdən sol mövqedəki birləşməmizə hücum etməyə hazırlaşırdı. Dərhal həmin istiqamətdə köməyə getdik. Erməni xüsusi təyinatlılarını böyük itkiyə məruz qoyaraq geri oturdandan sonra bizdən soldakı həmlə qrupumuzun yanına doğru hərəkət etməyə, onların vəziyyətini yoxlamağa çalışırdıq. Elə bu vaxt düşmən minaatanlarla bizim yerləşdiyimiz ərazini atəşə tutdu. Mərmilərdən biri yanımda partladı. Dodağım, başım, ümumən bədənimin müxtəlif yerləri qəlpə yarası aldı. Sağ ayağım dizdən aşağı tamam parçalandı. Gücümü toplayaraq, özümə ilkin tibbi yardımı etdim.

Orxan adlı zabit yoldaşım təxminən iki saat sonra məni döyüş meydanından çıxara bildi. Həyatda qalmağımı ona borcluyam. Bakıdakı xəstəxanada sağ ayağım dizdən aşağı amputasiya olundu. İndi ikinci qrup Qarabağ müharibəsi əliliyəm. Dövlət Turizm Agentliyinin tabeliyindəki Qoruqları İdarəetmə Mərkəzinin mütəxəssisi olaraq əmək fəaliyyəti ilə məşğulam. Xalqıma, dövlətimə, Vətənimə daim şərəflə qulluq etdiyim üçün qürurluyam. Ali Baş Komandanımız İlham Əliyevin vurğuladığı kimi, 44 gün ərzində hərbçilərimiz daim irəliləyib, canı-qanı bahasına Vətən torpağının hər bir qarışını düşmən tapdağından azad edib, şanlı tarix yazıb. Sevinirəm ki, Zəfər Tariximizin yazılmasında mənim də payım var”.



Qeyd edək ki, E.Xəlilovun xidmətləri Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. O, “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə”, “Hərbi xidmətlərə görə”, “İgidliyə görə” və Vətən müharibəsi iştirakçısı medalları ilə təltif olunub. Dövlət tərəfindən mənzillə, avtomobillə təmin olunub.



# SÜNİ İNTELLEKT TƏHSİL PROSESİNDƏ

Süni intellektin peşəkar mühitdə tətbiqi hər keçən gün artır. Bu, universitetlərdə də sözügedən sahə ilə bağlı yeni ixtisasların yaradılmasını zəruri edir. Ekspertlər bu sahədə gecikdiyimizi düşünürlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dünyada informasiya texnologiyaları sürətlə inkişaf edir və süni intellekt (Sİ) peşəkar mühitdə getdikcə daha çox tələb olunur. Ölkəmizdə də süni intellektin tətbiq edildiyi sahələrin genişlənməsi yeni ixtisasların yaranmasına, əmək bazarının dəyişməsinə səbəb olur. Bu dəyişiklik ali məktəblərin qarşısına yeni ixtisasların yaradılması və onların tədrisi öhdəliyini qoyur. Bu baxımdan, universitetlər artıq sadəcə təhsil verilən klassik yer statusundan çıxır, öyrənmə üçün prinsipcə yeni mühit, əmək bazarının tələblərinə cavab verən müasir məkanlar yaratmağa başlayırlar.

Süni intellektlə bağlı əmək bazarının tələblərinə uyğun ixtisasların yaradılması təbii ki, bu istiqamətdə konkret addımlar və proqram dəyişiklikləri tələb edir. Belə ki, dünya ölkələrində çoxdan başlanan bu prosesə qoşulmağımız süni intellektlə bağlı ixtisasların tətbiq ediləcəyi sahələr, gətirəcəyi yeniliklər, bu istiqamətdə müəllim kadrlarının hazırlanması, dərs vəsaitləri, orta məktəblərdən başlayaraq fənlərin tədrisi və s. kimi mühüm məqamlara diqqət çəkməyi tələb edir.

### "UNİVERSİTETLƏRDƏ SÜNİ İNTELLEKTLƏ BAĞLI İXTİSASLAR YARANACAQ"

"Çox güman ki, gələcəkdə müəyyən universitetlərdə süni intellektlə bağlı ixtisaslar yaranacaq", - deyə Kembric Universitetinin professoru Qərib Mürşüdov istisna etmir: "Texnologiyanın sürətli inkişafı cəmiyyətdəki fəaliyyətlərə təsir göstərir. Təhsil də bu təsirdən kənarda deyil. Məsələn, süni intellekt və cəmiyyət, süni intellekt və enerji problemləri kimi mövzular ön plana çıxacaq. Lakin məncə, bu ixtisasların dəyəri elə də böyük olmayacaq. Klassik ixtisaslar və fənlər uzun müddət daha qiymətli olaraq qalacaq. Süni intellektin müxtəlif sahələrə böyük təsiri olacağı şübhəsizdir. Təhsil sahəsində də bu təsirin əhəmiyyətli olacağına inanıram. Süni intellekt üsullarının öyrənilməsi və tətbiqi, ehtimal ki, hər hansı bir ixtisasın öyrənilməsində mühüm rol oynayacaq. Məncə, gələcəkdə hər bir fakültədə süni intellektin tətbiqi ilə bağlı dərslər və ya modullar olacaq. Nəzərə almaq lazımdır ki, süni intellekt və ümumilikdə maşın öyrənmə üsulları yeni üsullar və ya ixtisaslar deyil. Onlar kompüter elmləri ixtisasının tərkib hissəsidir və 50-60 ildir ki, tədris olunur. Üsullar inkişaf etdikcə, tədris metodları da dəyişir. Gələcəkdə də bu proses davam edəcək". Alimin fikrincə, Azərbaycanda bu sahədə mütəxəssislər var, lakin bu sahə çox sürətlə inkişaf etdiyi və daim yeni üsullar meydana çıxdığı üçün, 2-3 il əvvəlki üsullar artıq köhnəlmiş sayılır: "Əgər Azərbaycan universitetlərində bu istiqamətdə təhsil veriləcəksə, cavan və yeni üsulları öyrənib tədris edə bilən mütəxəssisləri cəlb etmək vacibdir. Onları universitetdə saxlamaq üçün yaxşı şərait yaradılmalı və əmək haqları kifayət qədər yüksək olmalıdır".





Qərib Mürşüdov

## "Elə bir elm sahəsi yoxdur ki, süni intellektdən istifadə edilməsin"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlı bildirir ki, hazırda süni intellekt texnologiyanın əsasında durur və elə bir elm sahəsi yoxdur ki, ondan istifadə olunmasın: "Bu baxımdan, bu fənni ilk növbədə orta məktəb dərsliklərinə daxil etmək lazımdır. Ali məktəblərdə isə bu və ya digər formada keçirilir. Xəzər Universitetində bu, məcburi fəndir, tədqiqatlarda, elmi araşdırmalarda fikir verdiyimiz sahədir, eyni zamanda humanitar sahələrdə də keçirilir. Süni intellekt kompüter elmləri üzərində qurulan bir elmdir. Onun aparıcı texnikası bir az riyaziyyat, bir az statistika, bir az fizikadır. Bu fənnin tədrisi, bu istiqamətdə ixtisasların yaranması zəruridir. Nə biologiya, nə fizika, nə kimya, nə idman oyunları onsuz mümkündür. Bu il fizika və kimya üzrə Nobel mükafatını alanlar süni intellekt mütəxəssisləri oldular". Professor bildirir ki, bizim ölkəmizdə sovet dövründə riyaziyyat, fizika, kimya üzrə elmi məktəb olsa da, kompüter üzrə olmayıb. Buna görə də biz süni intellekt kimi sahələrdə çox gecikmişik: "Ali məktəblər bu sahəyə çox fikir verməlidirlər. Çalışmalıdırlar ki, orta məktəblərdə də süni intellekt dərsləri keçirilsin. Bu sahədə müəllimləri hazırlamaq lazımdır. Biz öz universitetimizdə bu sahənin tədrisi üçün müəllimlərin 70 faizini xarici ölkələrdən dəvət etməyə məcburuq. Onlar gəlir, onlayn dərs keçir, proqram hazırlayır, konfranslar təşkil edirlər". Süni intellektin, yeni ixtisasların yaranması və tədrisi ilə bağlı dərs vəsaitlərinə gəlincə, H.İsaxanlı bildirir ki, bu istiqamətdə dərsliklər də yoxdur: "O vəsaitləri tərcümə etmək lazımdır. Sürətli dəyişiklik olduğundan beş il əvvəlki kitablar işə yaramır. Çalışıb sürətli hərəkət etməliyik".

## "DƏRSLİKLƏRDƏ DƏYİŞİKLİKLƏRƏ EHTİYAC VAR"

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Pərvinə Qədimova da hesab edir ki, süni intellektin inkişafı və tədrisdə tətbiqi yeni ixtisasların yaranmasına səbəb olacaq. Onun fikrincə, Sİ ilə bağlı ixtisasların yaranmasına ümumtəhsil müəssisələrindən başlamaq lazımdır: "Bəzi müəllimlər daim öz üzərlərində işləyir, süni intellektin imkanlarından istifadə edir və onu dərslərdə tətbiq edirlər. Amma bu, hamıya şamil oluna bilməz". AGMA sədri bildirir ki, bəzi dərsliklərdə bununla bağlı məlumatlar yer alıb: "Hansısa materialların QR vasitəsilə verilməsi, süni intellektə tam keçid demək olmasa da, bu istiqamətdə addım atıldığını göstərir. Şagird həmin QR-lardan istifadə edib məlumatlılığını genişləndirə bilər. Bu, dərsliklərdə əlavə olunan bir nümunədir. Amma süni intellektin bu qədər inkişaf edildiyi bir zamanda dərsliklərdə də yeni dəyişikliklərin edilməsinə ehtiyac zamanla hiss olunacaq. Bununla paralel müəllimləri də eyni istiqamətdə hazırlaşdırmaq lazımdır. Dərsliklər irəli getdiyi təqdirdə müəllimlər onları tədris edəndə çətinliklər yarana bilər. Bu səbəbdən bunu paralel şəkildə aparmaq daha düzgün olar".



Pərvinə Qədimova

“NARKOMANLARDAN BİR QİSMİ AĞRIDAN, SƏFİL HƏYATDAN BEZİR VƏ GEDİB REABİLİTASİYA MƏRKƏZLƏRİNDƏ MÜALİCƏ OLUNUR”

# “NARKOMANİYADAN SAĞALMAQ ÜÇÜN “DİB”İ GÖRMƏLİSƏN”




**Nail Kəmərli:** “Maarifləndirmə nəticəsində müalicə olunanların sayı hər gün artır. Düzgün maarifləndirmə çox önəmlidir. İnsanlar narkomanların həyatını gördükcə bir növ qorxub uzaq dururlar”.

“Ağ ölüm” deyirlər adına. Minlərlə insanın həyatını məhv edib. Neçə-neçə ananın, yoldaşın, uşağın gözünü yaşlı qoyub. Bu bəlanın adı narkotikdir. İstifadəçilərinin sayı davamlı olaraq artır. Dövlət səviyyəsində mübarizə aparılsa da, tam sonu gəlməyən bir girdabdır narkomaniya. Son zamanlar uşaqlar, qadınlar arasında da yayılmaqda, dövrümüzün vəbasına çevrilməkdədir. Biz də narkomaniya və problemin həlli yolları haqqında “Narkotiklər, Zərərli Asılılıqlar Əleyhinə Səfərbərlik Mərkəzi” İctimai Birliyinin rəhbəri Nail Kəmərli ilə həmsöhbət olduq. Nail son vaxtlar bu mövzuda çəkdiyi və paylaşdığı videolarla populyarlaşıb. Onu tez-tez bu bəladan əziyyət çəkənlərin yanında görürük. Bu mövzuda çəkdiyi videolar da xeyli populyardır.

### “ÇEVRƏ VƏ AİLƏ ƏSAS FAKTORDUR”

**● Nail bəy, sizin də videolarınızda vurğuladığınız kimi, narkomaniya gündən-günə daha çox yayılmaqdadır. Siz xeyli müddətdir bu sahədə çəkilişlər aparan biri olaraq bunun səbəblərini nədə görürsünüz?**

● Narkomaniyanın yayılma səbəbləri çoxdur. Amma ssenari birdir. Bütün ssenarilərdə yalnız qəhrəmanlar dəyişir. Narkomaniyanın artmasının əsas səbəblərindən biri ailə faktorudur.



İkinci isə mühitdir. Bir çoxuna “niyə narkoman olmusan” sualını verəndə eyni cavabla rastlaşıram. Ana və ata boşanır. Ana işləmək məcburiyyətində olur və övlad nəzarətsiz qalır. Məhəllədə xüsusi çevrəyə düşür, özündən böyük avara uşaqlarla gəzməyə başlayır və tora düşür. Uşağın ailəsi ilə bağları möhkəm olarsa, bu kimi neqativ vərdişlər haqqında məlumatlı olur, pis çevrəyə qoşulmur. Qoşulsa belə, özünü qorumağı bacarır.

**● Bəzən bu bəlaya idmançıların, məşhur şəxslərin də düşdüyünü görə bilirik. Onları da buraya gətirən səbəblər yuxarıdakılardır?**

● Bəzən idmançılar, tanınmış şəxslər də ağır depressiyaya düşə bilirlər. Bir anlıq da olsa yaşadıqlarını unutmaq istəyirlər. Belə məqamlarda kimsə peyda olur və deyir ki, “al, bunu at, bütün dərdlərini unudacaqsan”. İdmançı da özünə güvənir ki, orqanizmim, psixologiyam, iradəm güclüdür, mənə heç nə edə bilməz. Atdıqdan sonra görür ki, həqiqətən də özünü yaxşı hiss edir. Narkotik də belədir ki, ilk dəfə qəbul edəndə xoşbəxtlik hormonunu qaldırır. İnsanın dopamin hormonu narkotik qəbulundan sonra 70-80 faizə qədər yüksələ bilir. Amma narkotiki ikinci dəfə qəbul edəndə bu göstərici maksimum 50-60 faizə qalxır. Nəticədə istifadəçi birinci qəbul zamanı aldığı həzzi axtarmaq üçün dəfələrlə narkotikdən istifadə edir. Birinci tablet içir, sonra çəkir, sonra iynəyə keçir. Birdən fərqinə varır ki, artıq 10 ildir narkotik istifadəçisidir. Davamlı istifadə etdikdən sonra dozanı artırır, amma dopamin səviyyəsi artmır, əksinə, azalır.

### “QADINLARDA ASILILIQ YARATMAQ DAHA ASAN BAŞA GƏLİR”

**● Keçmişdə narkotik istifadə edənlər əsasən imkanlı insanlar olurdu. Amma sanki indi vəziyyət dəyişib.**

● 15-20 il əvvəl narkomanlar əsasən heroin istifadə edirdilər. O daha bahalı olduğu üçün narkotikdən daha çox varlılar istifadə edirdilər. Amma hazırda populyar olan “patı”, “kokos” çox ucuzdur. Əslində onlar heç narkotik vasitə deyil, psixotrop tərkibli maddələrdir. Onlar insanlarda çox sürətli şəkildə asılılıq yaradır. İstifadəçini qısa müddətdə çox pis hala salır, zombiləşdirir. Narkomanlar onu əldə etmək üçün hər şeyi xərcləyirlər. Narkomanlar var ki, həyat yoldaşlarının geyimlərini “barıqa”lara verir və narkotik alırlar. Əvvəlki narkomanlarda heç zaman zibil eşmək, küçədə, zirzəmidə yaşamaq kimi halları görə bilməzdik. İndi isə əksər hallarda narkomanları zibillikdən plastik qutular yığan görürük. O qabları yığıb satıb, pula çevirib, “patı”, “kokos” alırlar.

*“Necə ki, şəkər kimi ömürlük olan xəstəliklər var, sağalmır, xəstədən daimi qorunma tələb edir, narkomaniya da belədir. Narkomanlar reabilitasiyadan keçəndən sonra da özlərini ömür boyu qorumalıdırlar.”*



**● Son dövrlər bu bataqlığa düşən qadınların da sayı artmaqdadır...**

● Qadınlarda asılılıq yaratmaq daha asan başa gəlir. Bəzi qadınlara narkotiki arıqladıcı dərman kimi verirlər. Deyirlər, dərmandır, qəbul et, qısa zamanda xeyli çəki itirəcəksən. Bəzi qadınlar da inanır və alıb istifadə edirlər. Qadınların bu yola düşməsinin bir səbəbi də sevgisizlik olur. Qadın həmişə sevgi axtarışındadır. Narkomanlar da şirin dillərinə salıb, onların bu boşluğundan istifadə etməyə çalışırlar. Məsələn, bir faktı deyim. Bir zamanlar yaxşı işi, qazancı olan ginekoloq xanım bu bəlaya düşüb. Çox gözəl qadın olub, amma narkotik aludəçiliyi nəticəsində indi o gözəlliyindən əsər-əlamət qalmayıb. Onu bu bataqlığa sevgi salıb. Bir narkomanla tanış olub. Oğlan narkoman olduğunu ona bildirməyib. Narkomanlarda da manipulyasiya qabiliyyəti çox güclü olur. İmkanlı olduğu üçün xanıma yaxınlaşıb. Birinci qadını özünə aşiq edib. Sonra yavaş-yavaş onun da narkotik istifadə etməsi üçün çalışıb və məqsədinə nail olub. Asılılıq yarandıqdan sonra isə artıq qadın narkomana çevrilib və iynə vurur. Hazırda o, müalicə alır.

**● Söz düşmüşkən, qadınların və kişilərin narkotikdən müalicəsində hansısa fərqlər mövcuddurmu?**

● Qadınların reabilitasiya mərhələsi daha çətindir. Fizioloji cəhətdən bu proses kişilərdə daha asandır. Əgər on qadın müalicə olunursa, onların cəmi biri və ya ikisi sağala bilir. Qalanların əksəriyyəti reabilitasiyadan sonra da bu bəlaya yenidən dönür. Çünki qadınlar əksər hallarda bu yola kimsə tərəfindən gətirilib, narkotiki əldə edən zaman ödəniş etməyib. Bəziləri kiminsə yanında istifadə edib, yaxud bədənini satıb və bunun müqabilində narkotik alıb. O səbəbdən qadınların narkotikə əlçatanlığı daha asandır. Kişilərin öhdəlikləri daha çox olduğu üçün onlar sağalmağa daha meylli olurlar. Amma narkoman qadınların əksəriyyətində ailələri dağılmış olur, uşaqlarını dövlət himayəyə götürür və onların ciddi bir öhdəlikləri yoxdur. Reabilitasiyadan çıxdıqdan sonra da yaxınları onları qəbul etmir. Nəticədə yenidən narkoman çevrəsinə dönmək yolunu seçirlər.

### “SAĞALMA VƏ GERİ DÖNMƏ BİR NEÇƏ DƏFƏ TƏKRARLANIR”

**● Reabilitasiyaya bir neçə dəfə müraciət edən narkomanlar olurmu?**

● Bəli, olur. Bəzi narkomanlar reabilitasiya mərkəzinə dəfələrlə girirlər. Oradan çıxdıqdan sonra yenidən istifadə edirlər. Çünki onlar müalicənin birinci mərhələsindən keçirlər, yəni bədənlərini təmizləyirlər. İkinci aşılmalı olan psixologiyadır. Əsas olan da elə budur. Bədənlərini təmizləyirlər, amma psixologiyaları əvvəlki kimi qalır. Reabilitasiyadan çıxırlar və bədənləri təmizləndiyi üçün ən xırda doza ilə də həzz ala bilirlər. Bu şəkildə sağalma və geri dönmə bir neçə dəfə təkrarlanır.

### “NARKOMANIN BİR GÜN NARKOTİKSİZ AYIQ QALMAĞI BÖYÜK NƏTİCƏDİR”

**● Bəs narkomanların həqiqi sağalması nə zaman baş verir?**

● Narkomaniya asılılıqdır. Necə ki, şəkər kimi ömürlük olan xəstəliklər var, sağalmır, xəstədən daimi qorunma tələb edir, narkomaniya da belədir. Narkomanlar reabilitasiyadan keçəndən sonra da özlərini ömür boyu qorumalıdırlar. Əvvəlki çevrələrindən uzaq durmalı, içki məclisində olmamalı, ciblərində çox pul gəzdirməməlidirlər. Əgər bunlara əməl olunmazsa, keçmiş narkoman reabilitasiyadan sonra yenidən bu aludəçiliyə geri dönəcək. Narkomanın bir gün narkotiksiz ayıq qalmağı böyük nəticədir. Tamamilə sağalıb bu bəladan xilas olanlar da var. O insanlar “dibi” görürlər. Həmin o “dib”i görməyənlər sağalmaq istəmirlər. “Dib” o deməkdir ki, sən qışda, soyuqda küçədə, zirzəmidə bərbad şəraitdə yaşayırsan, 6-7 ay çimmirsən, ailən, bütün cəmiyyət səni tərk edir, həyatda tək qalırsan. Müalicə aldıqda hisslər bərpa olur. Bu zaman narkoman öz-özünə deyir ki, “mən elə vəziyyətdə necə yaşamışam?” Belələrinin reabilitasiyadan sonra yenidən o vəziyyətə qayıtması çox az hallarda olur.

**● Sizcə, sağalmaq istəyən hər kəsin tamamilə sağalmaq şansı olurmu?**

● Bəziləri düşünürlər ki, narkotik istifadə edim, eybi yox, reabilitasiya keçərəm, sağalaram. Amma təəssüf ki, hər adam narkomaniyadan sağala bilmir. Elə şəxslər var ki, narkotik istifadə edir, bir müddət sonra satışa görə həbs olunur. Bu zaman onlar islah olunmurlar. Əksinə, daha da qəddarlaşıb azadlığa çıxırlar və yenidən istifadəyə başlayırlar. Həbsə düşməmişdən əvvəlki dozanı istifadə edir, bədəni də təmiz olduğu üçün tab gətirmir və həyatlarını itirirlər. Bəzi insanlar istifadənin ilk aylarında da ölə bilirlər. Bu da səhv istifadə nəticəsində baş verir. Bütün bunları ümumiləşdirsək, sağalmaq heç də hər narkomana nəsib olmur. Ona görə maksimum bu bəladan uzaq olmaq lazımdır.



**Fotolar:** Əjdər İbrahimov - Global Photostock

## “BU YOLDAN KEÇMƏYƏN HEÇ VAXT DİGƏRİNƏ KÖMƏK EDƏ BİLMƏZ”

**● Bu bəladan qurtulmaqda son vaxtlar populyarlaşan reabilitasiya mərkəzlərinin rolu nə qədərdir?**

● Bəli, son vaxtlar narkomanların reabilitasiya mərkəzləri çoxalıb. Bu, bir tərəfdən yaxşıdır. Çünki 2021-ci ilə qədər reabilitasiya mərkəzləri yetəri qədər deyildi. Yalnız Maştağada yerləşən dispanser var idi. Oraya da girirdilər və çıxandan sonra yenidən əməllərinə davam edirdilər. Beləliklə, say artırdı. Reabilitasiya mərkəzləri yaradıldıqca narkomanlardan bir qismi ağrıdan, əziyyətdən, səfil həyatdan bezir və gedir müalicə olunur. Sonra digər narkomanları da təşviq edirlər ki, müalicə ilə bu bəladan xilas olun. Adətən reabilitasiya mərkəzlərini işlədənlər özləri keçmiş narkomanlardır. Çünki bu yoldan keçməyən heç vaxt digərinə kömək edə bilməz. Onlar sağalır və başqalarına da bu bəladan qurtulmaqda yardım etməyə çalışırlar. Özü hansı yollardan keçibsə, müalicə alanlara da onu tətbiq edir. Reabilitasiya mərkəzlərində iynəsiz, dərmansız müalicə tətbiq edilir. Elə reabilitasiya mərkəzləri var ki, ucuz qiymət təklif edirlər. Belə mərkəzlərin şəraiti çox pis olur. Belə mərkəzlərdə hətta reabilitasiya keçən narkomanlara işgəncələr də verirlər. Amma əksər hallarda belə mərkəzlərdən çıxan narkomanlar yenidən bu bəlaya qayıdırlar.

**● Bəs reabilitasiya mərkəzlərinin fəaliyyətinə hər hansı nəzarət yoxdurmu?**

● Fikrimcə, reabilitasiya mərkəzlərinin fəaliyyətinə xüsusi nəzarət olmalıdır. Yaxşı fəaliyyət göstərən mərkəzlərə dövlət tərəfindən maliyyə dəstəyi ayrılmalıdır. Bu zaman imkansız insanlar da biləcəklər ki, hansısa reabilitasiya mərkəzində hər ay 10 nəfər pulsuz müalicə ala bilər. Hazırda o qədər insanlar var ki, sırf imkanı olmadığı üçün müalicədən kənarda qalır.

### “NARKOTİK İNSANLARIN BÜTÜN VAR-DÖVLƏTİNİ ƏLİNDƏN ALIR”

**● Təbliğatın bu bəlanın qarşısının alınmasındakı rolunu necə dəyərləndirirsiniz?**

● Maarifləndirmə nəticəsində müalicə olunanların sayı hər gün artır. Düzgün maarifləndirmə çox önəmlidir. Məsələn, çıxıb sadəcə statistikanı desəniz, mütəxəssis danışdırsanız, bu, heç kimə maraqlı olmayacaq. Amma insanlar narkomanların acınacaqlı həyatını gördükdə bir növ qorxub uzaq duracaqlar. Uşaqlar belə həyat hekayələrini gördükdə biləcəklər ki, bu bəla necə təhlükəlidir. Əvvəlki dövrlərdə maarifləndirici videolar yox idi. Amma hazırda var.

**● Övladlarını qorumaq məsuliyyəti olan valideynlərə nə məsləhət görərdiniz?**

● Narkotik insanların bütün var-dövlətini əlindən alır. Öz var-dövlətlərini xərcləyib qurtarandan sonra narkomanlar qurbanlar axtarırlar. Əsasən də imkanı olan insanları tora salmağa çalışırlar. Çünki bilirlər ki, imkanlı adam narkotikə öyrənəndən sonra onu almağa çalışacaq və onların köməyinə müraciət edəcək. Narkotik beş manatdırsa, qurbandan 10 manat alır, həm onun, həm də özünün tələbatını ödəyir. Sonra qurbanın da pulu bitir və onlar ikisi birlikdə yeni qurban axtarışına çıxırlar. Bu baxımdan valideynlər övladlarına diqqət etməlidirlər. Narkotik istifadə edən uşağın yuxu rejimi pozulur. Məsələn, “patı” istifadə edən uşaqlar günlərlə yatmırlar. “Kokos” istifadə edənlər isə əksinə, günlərlə yatırlar. Bundan başqa, narkotik istifadə etməyə başlayan uşaqlar əsəbi olurlar. Onların göz bəbəkləri genişlənir. Çimməkdən imtina edirlər. Çünki sudan qorxurlar.

### “SAĞALMAQ ÜÇÜN ADDIM ATIBLARSA, DEMƏLİ, PEŞMANDIRLAR”

**● Bəs sizcə, cəmiyyət olaraq bizlərin üzərinə hansı vəzifələr düşür?**

● Narkomaniya bir xəstəlikdir, narkomanlara da xəstə kimi baxmaq lazımdır. İnsanlar adətən narkomanlardan qorxurlar. Bu zaman narkoman özünü daha da güclü hesab edir. Cəmiyyət müalicə almış narkomanları da qəbul etmir. İnsanlar biləndə ki, birinin belə bir keçmişi var, ondan uzaq gəzirlər. Sağalan narkomanlara narkoman kimi baxmaq lazım deyil. Onlar sağalmaq üçün addım atıblarsa, deməli, peşmandırlar. Onlara dəstək olmaq, motivasiya vermək lazımdır. Qurtulmaq istəyən şəxslərə isə məsləhət görərdim ki, ətraflarındakı insanlardan kömək istəsinlər.



# HƏQİQİ HƏRBİ XİDMƏTLƏ BAĞLI DƏYİŞİKLİKLƏR

Həqiqi hərbi xidmətdə olmağın yaş həddi müəyyən edilməyən şəxslərin siyahısı genişləndirilir. Prezident tərəfindən vəzifəyə təyin edilən müvafiq dövlət orqanlarının rəhbəri və müavini üçün də son yaş həddinin müəyyən edilməməsi təklif olunur.



"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara dəyişikliklər təklif edilir. Bununla yanaşı, digər hərbi qanunvericilik aktlarında da müəyyən dəyişikliklər nəzərdə tutulub.

### GENERALLARIN HƏRBİ XİDMƏT MÜDDƏTİ İLƏ BAĞLI YENİLİK

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin son iclasında müzakirə zamanı bildirilib ki, həqiqi hərbi xidmətdə olmağın yaş həddi müəyyən edilməyən şəxslərin siyahısı genişləndirilir. Layihədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən müvafiq dövlət orqanlarının rəhbəri və müavini üçün də son yaş həddinin müəyyən edilməməsi təklif olunur.

Qanuna təklif edilən dəyişikliyə əsasən, ordu generalı, habelə müvafiq icra hakimiyyəti orqanının və Azərbaycan Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumlar istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin edilən rəhbəri və müavini üçün yaş həddi müəyyən edilmir. Həqiqi hərbi xidmətdə və ya ehtiyatda olmağın son yaş həddini keçmiş həmin şəxslər vəzifədən azad edildikdən sonra yaşa görə həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılacaqlar.

### KURSANT HƏRBİ RÜTBƏSİ ƏSGƏR RÜTBƏSİNƏ BƏRABƏR TUTULACAQ

Hərbi qanunvericiliyə digər dəyişikliklər isə kursantlarla bağlıdır. Belə ki, kursant hərbi rütbəsi əsgər (matros) hərbi rütbəsinə bərabər tutulacaq. Layihəyə əsasən, kursant hərbi rütbəsi hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alanlara (magistratura və adyunktura səviyyələrinin proqramları üzrə təhsil alanlar istisna olmaqla) həmin təhsil müəssisələrinə daxil olduğu gündən veriləcək.

Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinə daxil olana qədər kursant hərbi rütbəsindən yuxarı hərbi rütbə almış hərbi qulluqçuların və hərbi vəzifəlilərin rütbələri saxlanılacaq və onlar kursantların hüquqlarından istifadə etməklə onların vəzifələrini yerinə yetirəcəklər.

Normativ hüquqi aktlarda nəzərdə tutulmuş hallarda kursant hərbi rütbəsində ehtiyata buraxılmış hərbi qulluqçuların ehtiyatda olma müddətləri əsgər və matroslar üçün müəyyən edilmiş ehtiyatda olmanın yaş hədlərinə uyğun hesablanacaq.

### KURSANTLAR HANSI HALDA BURAXILACAQLAR?

Kursantlar (gizirlər, miçmanlar və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin yerləşdiyi yerdən bölük komandiri tərəfindən yalnız hərbi and içəndən sonra buraxılacaqlar. Layihəyə əsasən, kursantların həftələrarası istirahət və iş günü hesab edilməyən bayram günlərində növbəti tədris günü saat 08:00-dək buraxılmalarına icazə veriləcək.

4-cü və 5-ci kursların cari qiymətləndirmədən müvəffəq qiymət alan intizamlı kursantlarının yuxarıda göstərilən günlərdən əlavə olaraq digər günlərdə tədris məşğələləri və müstəqil hazırlıq saatları bitdikdən sonra növbəti tədris günü saat 08:00-dək buraxılmalarına da icazə veriləcək.




# SOCAR-IN YENİ BÖLMƏSİ YARADILIB

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) yeni bölməsi olan "SOCAR Midstream Gas Operations LLC" (SMGO) SOCAR-ın Azərbaycandakı və xaricdəki qaz anbarları və qaz kəmərləri də daxil olmaqla, bütün qaz nəqli infrastrukturunun idarə edilməsi, nəzarəti və istismarına cavabdeh olacaq. Bu barədə "Report" SMGO-nun məlumatına istinadən xəbər verir. "SMGO SOCAR-ın yeni yaradılmış və qaz nəqli ilə bağlı bütün əməliyyatların idarə edilməsinə görə məsul olan bölməsidir. Şirkət Azərbaycan və Gürcüstan ərazisində Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) texniki və kommersiya operatorudur, həmçinin SOCAR-ın Trans-Anadolu Qaz Boru Kəməri (TANAP), Trans-Adriatik Boru Kəməri (TAP) və SCP layihələrində maraqlarını təmsil edir", - məlumatda bildirilib.

Şirkətin məlumatına görə, SMGO-nun "SOCAR Midstream Operations" (SMO) şirkətindən ayrılması hər iki təşkilatın müstəqil fəaliyyət göstərməsinə və diqqəti öz strateji hədəflərinə cəmləşdirməsinə imkan yaradıb.

"Bu, hər iki şirkətin gələcək inkişafı üçün möhkəm təməl yaradır. Eyni zamanda, SOCAR-ın əməliyyat modelinə uyğun olaraq, SMGO-nun səlahiyyətləri genişləndiriləræk Azərbaycanda və xaricdə SOCAR-ın qaz kəmərləri və qaz anbarları da daxil olmaqla, bütün qaz nəqli infrastrukturunun idarə edilməsi, nəzarəti və istismarını əhatə edəcək", - məlumatda qeyd olunub.

Xatırladaq ki, daha əvvəl İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirmişdi ki, SMGO-nun SMO-dan ayrılması nəticəsində "SOCAR Midstream Operations" şirkətinin nizamnamə kapitalı 59,5 milyon manatdan 1000 manata qədər azaldılıb, onun hüquq və öhdəlikləri isə bölünmə balansına uyğun olaraq SMGO-ya ötürülüb.

"SOCAR Midstream Operations" 2015-ci ilin əvvəlində yaradılıb.

# "BAKCELL"İN DƏSTƏYİ İLƏ AZƏRBAYCANLI PİLOT NÜFUZLU YARIŞDA




İnnovasiya və sürət lideri "Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot Gülhüseyn Abdullayev 4-6 aprel tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək "Gulf Radical Cup" yarışında iştirak edəcək. "Bakcell" brendi altında yarışacaq pilotun avtomobil nömrəsi artıq bəllidir - 55!

Qeyd edək ki, sözügedən yarış 2006-cı ildə əsası qoyulan "GulfSport Racing" motosport komandası tərəfindən təşkil olunur.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 682
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# HEYVAN DAĞIN BAŞINDA, SAHİBKAR BAKIDA

**Kərə yağının idxalı artır. Daxili tələbatı yerli istehsal hesabına təmin etmək çətinləşir. Bu, həm də qiymətlərə təsir göstərir. Kəndlinin isə heyvandarlıq sahəsinə marağı azalıb.**

SEVİNC ABBASOVA

Hər il Azərbaycan daxili tələbatı ödəmək üçün ərzaq məhsullarının idxalına milyonlarla dollar vəsait xərcləyir. Ən çox vəsait xərclənən məhsullar içərisində kərə yağı da üstünlük təşkil edir. Kərə yağının qiyməti isə sürətlə artır. Hər ay böyük miqdarda valyuta xaricə axır. Məsələn, bu ilin yanvar-fevral aylarında Azərbaycana 5 338 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib. Dövlət Gömrük Komitəsinin hesabatına görə, bu həcmdə yağın dəyəri 36 milyon 843 min ABŞ dollar təşkil edib. Bunlar ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 2 370 ton (79,8 %), dəyər baxımından isə 21 milyon 287 min ABŞ dolları (2,4 dəfə) çoxdur.

Bəs, görəsən, ölkə daxilində kərə yağı istehsalını artırmaq üçün niyə tədbirlər görülmür? Bu istiqamətdə hansı addımlar atıla bilər?




### EMAL MÜƏSSİSƏLƏRİ EFFEKTİV İŞLƏMİR

İqtisadçı-ekspert Cəfər İbrahimli deyir ki, yağ istehsalını artırmaq üçün ölkədə kifayət qədər intensiv südçülük təsərrüfatları olmalıdır: "Əslində Azərbaycanda belə təsərrüfatlar mövcuddur. Amma məhsuldar heyvan sayı yetərli deyil. Bizdə olan say təxminən 100 min baş civarındadır. Əsas yük ailə təsərrüfatlarının üzərindədir. Statistik rəqəmlərə əsasən, bu təsərrüfatların istehsal etdiyi süd ümumi istehsalın təxminən 80 faizini təşkil edir. Yəni, südün yalnız 20 faizi intensiv təsərrüfatlardan gəlir. Ölkədə 2 milyon 200 min iribuynuzlu heyvan var. Onların çoxu məhsuldar deyil, tamamilə cırlaşıb. Dolayısıyla, biz ailə təsərrüfatlarındakı cırlaşmış heyvanları damazlıq və məhsuldar heyvanlarla əvəzləyə bilsək, süd istehsalının artması çərçivəsində kərə yağına olan tələbatın daha da yaxşılaşdırılmasına nail ola bilərik. Çünki idxalı tamamilə sıfırlamaq çətin məsələdir".

Ekspertin sözlərinə görə, Azərbaycanda emal məsələsi istənilən səviyyədə olmadığı üçün süd böyük həcmdə itkiyə gedir: "Hesab edirəm ki, ölkədə süd məhsullarının emal sənayesinin inkişafı məsələsi təkrar gözdən keçirilməlidir. Təhlillərə görə, bu müəssisələr effektiv işləmirlər. Daxili bazarda fermerlərdən vaxtında və uyğun qiymətlərlə məhsulu almadıqları üçün istər-istəməz istehsalda kəsintilər yaranır. Əgər kəsintilər aradan qaldırılarsa, idxaldan asılılığı 80 faizə yaxın azaltmaq olar. Bu addımlar təkcə kərə yağı istehsalını artırmayacaq. Eyni zamanda, kərə yağı istehsalından sonra digər süd məhsullarının istehsalını da təmin edəcək".

## Böyük həcmdə investisiyalara ehtiyac var

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov bildirir ki, Azərbaycanda heyvandarlığın inkişafına mane olan konkret səbəblər var. Onun sözlərinə görə, məhdud örüş sahələri və yem bazasının olmaması bu sahənin inkişafını ləngidir: "Ümumiyyətlə, ərazisi kiçik olan ölkələrdə heyvandarlığın inkişaf prosesi çətin olur. Ölkəmizdə həm örüş sahələri azdır, həm də yem idxal olunduğundan bahadır. Nəticədə yerli istehsal idxal olunan məhsuldan daha baha başa gəlir. Ona görə kiçik fermerlər bu işlə məşğul ola bilmirlər. Düzdür, perspektiv var. Məsələn, işğaldan azad olunmuş ərazilərimizdə bu sahəni inkişaf etdirmək mümkündür. Həmin ərazilərdə böyük komplekslər yaratmaq olar. Orada böyük otlaq ərazilərimiz var. Amma bununla yanaşı keyfiyyətli, yağlı süd əldə etmək üçün yem də olmalıdır".

Ekspert vurğulayır ki, dövlət bu sahənin inkişaf etdirilməsində maraqlıdır: "Neçə illərdir ki, yüksək məhsuldar genetik potensiallı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınan hər baş buzova görə heyvan sahibinə dövlət büdcəsindən 100 manat subsidiya verilir. Eyni zamanda, yem bazası sayılan yonca, arpa, buğda, qarğıdalı və s. əkin sahələrinə dövlət tərəfindən subsidiya ayrılır. Yəni, dövlətin bu sahəyə kifayət qədər qayğısı mövcuddur. Sadəcə, bu məsələ kəndlidən asılı deyil. Bu, iri şirkətlərin görəcəyi işdir. Bu sahəyə böyük həcmdə investisiyalar yatırılmalıdır. Böyük heyvandarlıq kompleksləri tikilməlidir".

Ekspert hesab edir ki, bu sahəyə sahibkarların marağı olmalıdır: "Kəndlinin dörd inək saxlaması ilə biz tələbatı ödəyə bilmərik. Düzdür, bu işi qurmaq istəyənlər olub. Amma idarəetmə düzgün qurulmadığından uğursuz alınıb. Çünki heyvan dağın başında, sahibkar Bakıdadır. Bakıda oturub dağın başındakı işi idarə etmək çətin məsələdir. Bu işi xaotik deyil, sistemli şəkildə qurmaq lazımdır".

## "İdxaldan asılılığımız davam edəcək"




İqtisadçı-ekspert Xalid Kərimli bildirir ki, artıq kənd əhalisi heyvandarlığı qazanclı sahə kimi görmür: "Əvvəl mal-heyvanı boş sahələrdə otarmaq olurdu. İndi otlaq sahələri hasarlanıb. Digər tərəfdən, gənclər bu işlə məşğul olmaq istəmirlər. Hesab edirlər ki, bu sahədə gəlirlilik yaxşı səviyyədə deyil. Bakıya gəlib fəhlə işləməyi ondan qazanclı sayırlar. Otlaq sahəsi olmadığına görə kəndli məcburdur ki, heyvanlara ot bağlaması versin. Ot bağlamasının qiyməti növünə uyğun olaraq 3-6 manat arasındadır. Kəndlinin də o qədər pulu yoxdur. Aidiyyəti qurumlar da bu problemin öhdəsindən gələ bilmirlər. Nəticədə südçülük üzrə heyvandarlıq inkişafdan qalır. Ona görə kərə yağına olan tələbatda idxaldan asılı vəziyyətdəyik. Gələcəkdə də idxaldan asılılığımız davam edəcək".

# SÜRÜCÜLƏRİN YARALI YERİ




Son zamanlar yanacaq doldurma məntəqələri ilə bağlı narahatlıqlar artır. Sosial şəbəkələrdə müşahidə olunan bu narazılıqlar artıq Milli Məclisdə də gündəmə gətirilib. Sürücülər benzinin keyfiyyətindən və qiymətdə aldadıldıqlarından şikayət edirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Avtomobilimin yeni olmasına baxmayaraq, məhz benzinin keyfiyyətsizliyi səbəbindən mühərrik və yanacaq sistemində ciddi problemlər yaranıb. Usta benzinin tərkibində çirkli qatqıların olduğunu bildirdi". Bu fikirlər sürücü Əliyə məxsusdur. Digər sürücü Natiq də eyni problemdən əziyyət çəkdiyini bildirir. "Maşın ustalarında növbədir, əksəriyyəti də keyfiyyətsiz yanacağa görədir. Sosial şəbəkələrdə hamı etibarlı yanacaqdoldurma məntəqəsi axtarır. Benzinə nə istəsələr qatırlar, buna da nəzarət edən yoxdur".

Digər sürücü isə iddia edir ki, mütləq qatqılardan istifadə etmək lazımdır: "Benzindən sonra 15-20 manatlıq qatqı əlavə etməsəm, avtomobildən boğucu səs gəlir. Benzin çəninin içi isə, elə bil qum torbasıdır".

**VƏTƏNDAŞLARIN HÜQUQLARI POZULUR**

Azərbaycanda sürücülər son illərdə yanacağın keyfiyyəti ilə bağlı müxtəlif şikayətlər səsləndirirlər. Sosial şəbəkələrdə benzinin keyfiyyətsiz olması ilə yanaşı, əskik vurulması, qiymətinin səhv göstərilməsi ilə bağlı iddialar da mövcuddur. Hətta millət vəkili Razi Nurullayev də Azərbaycanda fəaliyyət göstərən bir sıra yanacaqdoldurma məntəqələrində vətəndaşların hüquqlarının ciddi şəkildə pozulduğunu deyir. Millət vəkili bildirir ki, ya benzini əskik vururlar, ya pulu əskik qaytarırlar: "Ya da aparatı dayandırıb, yenidən benzin vurmağa başlayır, həcm rəqəmini çaşdırmağa çalışırlar. Bu hüquq pozuntusu onilliklərdir davam edir, eyni pozuntular bu gün də baş verməkdədir. Bilirsiniz ki, indiki avtomobillərdə elektron sistemdir və dolu çənlə qət olunacaq məsafəni göstərir. Necə olur ki, ayrı-ayrı məntəqələrdə bu, 60-90 km fərq edir? Ona görə ki, benzin vurularkən oğurluğa yol verilir, bu rəqəm isə gündə on tonlarla ölçülür. Mən aidiyyəti qurumları bu sahədə nizam-intizam yaratmağa və vətəndaşların hüquqlarını qorumağa çağırıram".

Mətbuatda Abşeron rayonu, Məmmədli kəndində yerləşən yanacaqdoldurma məntəqəsində vətəndaşın avtomobilinə yanacaq çəninin tutumundan artıq benzin vurulduğu ilə bağlı da məlumatlar yayılıb. İddiaçı avtomobilinin yanacaq tutumu 62 litr olduğu halda, məntəqədə çənə 63 litr yanacağın necə vurulduğunu sorğulayıb. Bir müddət öncə isə yanacaqdoldurma məntəqələrindən biri benzinə su qarışdığını etiraf etmişdi.

**"SÜRÜCÜLƏRİN HAQLARI POZULUR"**

Nəqliyyat eksperti Adil Nəbiyev deyir ki, yanacaq məsələsi sürücülərin yaralı yeridir: "Özüm də bunun şahidi olmuşam. Bu yaxınlarda avtomobili xanım idarə edirdi, mən də maşında idim və arxa şüşədən aparatdakı rəqəmlərə baxırdım. 19 manat 30 qəpik əvəzinə 24 manat 30 qəpik hesabladılar. Etirazımı bildirdim, rəqəm yenidən 19 manat oldu. Avtomobili elə saxlamaq lazımdır ki, rəqəmlərə diqqət edəsən".

Yanacağın keyfiyyətinə gəldikdə isə, mütəxəssis bildirir ki, keyfiyyətsiz benzin avtomobilə ciddi şəkildə zərər vurur: "Bəzi YDM-lər qazanca görə keyfiyyəti aşağı salırlar, bundan da bütün sürücülər əziyyət çəkirlər. Sürücülərin haqları pozulur. Yanacağa qatqılar əlavə edilir. Çirkli yanacaq injektorları və yanacaq filtrini tıxaya bilər. Filtr tez-tez tutulur, benzin çəni yararsız hala düşür".

## "Qurumlar məsuliyyətli yanaşma nümayiş etdirməlidirlər"

Onun sözlərinə görə, sürücülər çalışmalıdırlar ki, benzin çəni dolu olsun. Benzin azalanda nasos güclə işləyir, benzini çəkənə qədər yararsız hala düşür: "Keyfiyyəti qaldırmaq üçün ustalar qatqılar əlavə etməyi məsləhət görürlər. Amma onlar da aldadıcıdır. Keyfiyyətsiz yanacaq mühərrikdə düzgün yanmadıqda çöküntü yaranır və bu çöküntü katalizatora ziyan vurur. Katalizator sıradan çıxarsa, avtomobilin ekoloji normativləri pozulur və mühərrik performansı zəifləyir". Mütəxəssislər bildirirlər ki, sürücülər hüquqları pozulduqda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət etməlidirlər. Keyfiyyətsiz benzin problemi sürücülərin gündəlik xərclərini artırır və avtomobillərin texniki vəziyyətini pisləşdirir. Problemin həlli üçün nəzarət mexanizmlərinin gücləndirilməsi və sürücülərin daha diqqətli olması vacibdir. Yanacağın keyfiyyətini artırmaq üçün aidiyyəti qurumlar və yanacaq şirkətləri daha şəffaf və məsuliyyətli yanaşma nümayiş etdirməlidirlər.

**ŞİKAYƏTLƏR ÇOXDUR**

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Kaspi" qəzetinə bildirdi ki, YDM-lərlə bağlı şikayətlər çoxdur. Ən çox zərərçəkən isə avtomobil satan şirkətlərdir: "Vətəndaş təzə avtomobil alır, keyfiyyətsiz benzindən istifadə edir, qısa müddətdə mühərrik sıradan çıxır, zəmanəti olduğu üçün şirkətə gəlirlər ki, maşının mühərriki çalışmır, bunu dəyiş. Keyfiyyətsiz benzin səbəbindən böyük zərərə düşürlər".

**İSTEHLAKÇINI ALDADIRLAR**

E.Hüseynov deyir ki, şikayətlər daha çox benzinin keyfiyyətsiz olması, YDM-lərin benzinin miqdarını səhv göstərməsindəndir: "Vətəndaşın benzin çəni 44 litr tutduğu halda ona 50 litr benzin vurmuşdular. Vətəndaş çənin tutumunu və YDM-dən verilən çeki təqdim etdi, biz araşdırma apardıq. Hazırda bazarda bu vəziyyətin yaranmasının səbəbi odur ki, ictimai nəzarət yoxdur, YDM-lər istehlakçını aldadırlar. Vətəndaşlar bundan əzab çəkir, avtomobillər sıradan çıxır. Biz bu məsələni qaldırırıq, amma yenə də faydası yoxdur".



Adil Nəbiyev



Eyyub Hüseynov

Foto: Sabir Məmmədov - Global Photostock

# TƏLƏBAT DA ARTIR, FAİZLƏR DƏ

İstehlak kreditləri faizlərində artım müşahidə edilir. Ekspertlərin bu məsələdə fikirləri fərqlənir. Bir qisim mövcud rəqəmlərin reallıqla uzlaşmadığını, digər qisim isə elə bir təhlükə yaratmadığını iddia edir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Azərbaycanda istehlak kreditləri əhalinin müxtəlif ehtiyaclarını qarşılamaq üçün mühüm maliyyə vasitəsi kimi istifadə olunur. Lakin son dövrlərdə vətəndaşlar istehlak kreditlərinin faiz dərəcələrinin yüksək olmasından şikayət edirlər. Bunu statistik rəqəmlərdən də görmək mümkündür. Belə ki, Azərbaycan Mərkəzi Bankı 2025-ci il yanvar ayının birinə ölkədə istehlak kreditləri üzrə orta faiz dərəcələrini açıqlayıb. İstehlak kreditlərinin milli valyutada orta faiz dərəcəsi - kredit kartı vasitəsilə verilən kreditlər üzrə 26 faiz, məişət avadanlıqlarının alınması ilə bağlı olan kreditlər üzrə 25 faiz, yaşayış sahəsinin təmiri ilə bağlı olan kreditlər üzrə 16 faiz, avtomobil kreditləri üzrə 10 faiz və digər istehlak kreditləri üzrə 20 faiz təşkil edib. Qeyd edək ki, illik müqayisədə istehlak kreditlərinin milli valyutada orta faiz dərəcəsi - yaşayış sahəsinin təmiri ilə bağlı olan kreditlər və avtomobil kreditləri 1 faiz bəndi azalıb, kredit kartı vasitəsi ilə verilən kreditlərdə 2 faiz bəndi, digər istehlak kreditlərində isə 3 faiz bəndi artıb. Bu dövrdə məişət avadanlıqlarının alınması ilə bağlı olan kreditlər isə dəyişməyib. Kredit faizlərinin artımı hansı səbəblərlə bağlıdır?

### PROBLEMLİ KREDİTLƏR ARTA BİLƏR

İqtisad elmləri doktoru, professor Fikrət Yusifovun sözlərinə görə, ölkəmizdə təqdim olunan istehlak kreditləri üzrə faizlər yüksəkdir: "Azərbaycanda banklar, əsasən əhaliyə istehlak kreditləri verir. Bu kreditlərin faiz dərəcələri banklar arasında müəyyən qədər fərqlənsə də, bütövlükdə kredit portfelində orta faiz dərəcəsi eynidir. Bəzi istehlak kreditləri üzrə faiz dərəcəsi 25-26, digər kreditlər üzrə 15-16 faiz təşkil etsə də, istehlak kreditlərinin ortalama faiz dərəcəsi 20 faiz ətrafındadır. Belə kreditlər baha kredit hesab olunur".

Onun sözlərinə görə, əgər ölkədə istehlak qiymətləri indeksi və inflyasiya səviyyəsi nəzərə alınsa, o halda banklar tərəfindən əhaliyə təklif olunan istehlak kreditlərinin real dəyərindən bir neçə dəfə baha təklif olunduğunu görə bilərik. Kreditlərin həddindən artıq baha olması son nəticədə problemli kreditlər portfelinin şişməsinə səbəb olur.

## "XARİCİ BANKLARA DA ŞƏRAİT YARATMAQ LAZIMDIR"

F.Yusifovun fikrincə, Mərkəzi Bank bu faizlərlə bağlı müəyyən işlər həyata keçirsə də, demək olar ki, heç bir nəticəsi olmur: "Mərkəzi Bankın uçot dərəcəsini bir neçə dəfə aşağı saldığı vaxtlarda da kommersiya banklarında kreditlər baha satılırdı. Əslində uçot dərəcəsinin azaldılması kreditlərin ucuzlaşmasını təmin etməlidir. Lakin təəssüf ki, illərdir biz təcrübədə bunu görə bilmirik".

İqtisadçı bu problemin həlli yollarından da bəhs etdi. Onun sözlərinə görə, kredit faizlərinin aşağı salınması tələb və təklif əsasında formalaşa bilər. Bazarda bir məhsul az olanda qiyməti yüksəlir, lakin artdıqda qiymətlər tənzimlənir: "O səbəbdən düşünürəm ki, xarici banklara da şərait yaratmaq lazımdır. Əgər ölkənin bank sektorunda digər oyunçuların - dünyanın böyük banklarının iştirakı təmin edilərsə, o halda ölkə ərazisində kredit təklifləri artar, tələb və təklif əsasında istehlak kreditlərinin, həmçinin biznes kreditlərinin faiz dərəcələri tam optimallaşar. Filiallar və ya nümayəndəliklər şəklində bunu təmin etmək olar. Yerli banklar da məcbur olub faizləri endirəcək".



Fikrət Yusifov

Xatırladaq ki, Avropa ölkələrində istehlak kreditləri üzrə faizlər 5-12 faiz, hətta bəzi ölkələrdə 3-5 faiz arasındadır. Qonşu ölkələrdə isə vəziyyət bir az daha fərqlidir. Belə ki, Türkiyədə istehlak kreditləri faizləri son illər artsa da, 15-20 faiz civarında dəyişir. Rusiyada isə inflyasiya səbəbindən faizlər 15-25 faiz aralığındadır.

### "FAİZLƏ BAĞLI LİMİT MÖVCUD DEYİL"

İqtisadi məsələlər üzrə ekspert Asif İbrahimlinin sözlərinə görə, istehlak kreditləri üzrə faizlər təyin edilərkən müəyyən məsələlər nəzərə alınır: "İstehlak kreditlərinin faizlərində artma və ya azalma hansısa kredit məhsulunun hesablanmış faiz miqdarı, bankların qiymət siyasəti əsas götürülərək təyin edilir. Kreditlərin verilməsində əsas ön plana çıxarılan istehlakçının kredit ödəmə qabiliyyətidir. Müvafiq risk dərəcəsi hesablanaraq faizlər müəyyənləşdirilir. Qanunvericilikdə faiz miqdarının hansı limitdə olması ilə bağlı məhdudiyyət mövcud deyil".

A.İbrahimli bildirdi ki, faizlərin aşağı salınması adətən kampaniya xarakteri daşıyır: "Bazara yeni bir kredit məhsulu çıxdığı zaman, yaxud kredit məhsulunun tanıdılması lazım olduqda, hansısa kredit məhsulu daha çox mənfəət gətirdiyi zaman bu tendensiyanı müşahidə edirik".

Onun sözlərinə görə, kredit faizlərinin artması hər hansı təhlükə ehtiva etmir. Çünki istehlakçının təqdim etdiyi məlumatlara əsasən, risklərin qiymətləndirilməsi və ödəmə qabiliyyətinin hansı səviyyədə olması müəyyənləşdirilir: "Bununla bağlı qanuna müəyyən dəyişikliklər də edildi. Hərtərəfli araşdırıldıqdan sonra kredit təqdim edilir".



Asif İbrahimli

“ŞOK”A DÜŞƏRƏK HƏYATINI İTİRƏN XƏSTƏLƏRLƏ BAĞLI XƏBƏRLƏR NİYƏ ARTIB?

# “ŞOK”A DÜŞƏRƏK HƏYATINI İTİRƏNLƏR

Cərrahi prosedura məruz qalan hər bir şəxs, hətta yerli keyitmə ilə əməliyyat olunsa belə, müəyyən protokol üzrə müayinələrdən keçməlidir. Xəstə ciddi şəkildə araşdırılmalıdır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar mətbuatda “şok”a düşərək həyatını itirən xəstələrlə bağlı xəbərlərə tez-tez rast gəlirik. “Əlindəki ziyilə görə xəstəxanaya gedən qız öldü”, “4 yaşlı uşaq inyeksiyadan şoka düşərək öldü”, “qadın antibiotikdən şoka düşdü” kimi xəbərlər insanları narahat edir. Bəs, görəsən, son zamanlar bu cür ölüm hallarının artmasının səbəbləri nədir? Bu, həyat tərzi, xəstəliklərin artması, dərmanların keyfiyyətsizliyi, həkim səhlənkarlığı ilə bağlıdır, yoxsa sadəcə təsadüfdür?

### “XƏSTƏ ƏMƏLİYYATDAN ÖNCƏ CİDDİ ŞƏKİLDƏ ARAŞDIRILMALIDIR”

Professor Adil Qeybulla deyir ki, hər bir ölümün səbəbi dərindən araşdırılmalıdır. Cərrahi prosedura məruz qalan hər bir şəxs, hətta yerli keyitmə ilə əməliyyat olunsa belə, müəyyən protokol üzrə müayinələrdən keçməlidir: “Xəstə ciddi şəkildə araşdırılmalıdır. Xəstənin allergiyası, ailəvi hər hansı xəstəliyi varmı? Yanaşı xəstəlikləri, dərmanlara reaksiyası ciddi şəkildə yoxlanılmalıdır”.

### KEYFİYYƏTSİZ DƏRMANLAR, HƏKİM MƏSULİYYƏTSİZLİYİ...

Mütəxəssis bildirir ki, xəstə dərmanların keyfiyyətsizliyindən də şoka girə bilər, həkim məsuliyyətsizliyindən də: “Ümumiyyətlə, xəstəxana şəraitində xəstənin dünyasını dəyişməsi tibb işçilərinin səhvi ucbatından da ola bilər. İstər xəstəxanada, istərsə də ev şəraitində dünyasını dəyişən adam mütləq araşdırılmalı, ölüm səbəbi bilinməlidir. Ölüm səbəbini bilmədən həkimi günahlandırmaq düzgün deyil. Tibb işçiləri pasiyentlərin allergik tarixçəsini diqqətlə öyrənməli və tibbi müdaxilələrdə daha diqqətli olmalıdırlar”.

### ALLERGİK REAKSİYALARIN VƏ XƏSTƏLİKLƏRİN ARTMASI

Sosial sahə üzrə ekspert İlqar Hüseynli deyir ki, müasir dövrdə insanların immun sistemi müxtəlif səbəblərdən zəifləyib. Sürətli şəhər həyatı, stres, düzgün olmayan qidalanma və ekoloji çirklənmə allergiya hallarının artmasına gətirib çıxarır. Statistikaya görə, son illərdə qida və dərman allergiyalarına qarşı həssaslıq xeyli yüksəlib. Bəzi insanlarda müəyyən dərman maddələri, xüsusilə antibiotiklər və ağrıkəsicilər ağır anafilaktik şok yarada bilər: “Dərman preparatına qarşı allergiya iti sürətli ölümə gətirib çıxara bilər. Hətta bu o qədər sürətli olur ki, xəstəni təcili tibbi yardıma çatdırmaq belə mümkünsüzləşir. Əvvəlki illərdə də anafilaktik şok nəticəsində həyatını itirənlər olurdu. Sadəcə, son vaxtlar mətbuatda tez-tez yazıldığı üçün bizə elə gəlir ki, belə hadisələrin sayı artıb”.



## ANAFİLAKTİK ŞOK NƏDİR?

Anafilaktik şok, çox güclü və həyati təhlükə yaradan allergik reaksiyadır. Bədən müəyyən bir allergenlə (məsələn, qida, dərman, böcək sancması və ya lateks) təmasda olduqda immun sisteminin həddindən artıq reaksiya göstərməsi nəticəsində yaranır. Allergik vasitə bədənə daxil olduqdan sonra reaksiya saniyələr ərzində və ya ən geci iki saatdan sonra başlaya bilər. Bədənə daxil olan bu vasitəni məhv etmək üçün orqanizmin bütün müdafiə hüceyrələri birdən-birə həddindən artıq aktivləşir və qana çoxlu miqdarda kimyəvi maddələr ifraz olunur. Hər bir orqan bu vəziyyətdən təsirlənir. İfraz edilən kimyəvi maddələrin miqdarından və immun sisteminin reaksiya dərəcəsindən asılı olaraq, müxtəlif simptomlar baş verə bilər. Üzün qızarması, tərləmə və ürək döyüntüsü, tənəffüs çətinliyi, aşağı qan təzyiqi, başgicəllənmə, qulaqlarda cingilti, ürək döyüntüsü, gözlərdə sulanma, asqırma, öskürək, qarın ağrısı və qusma kimi yalnız çox yüngül simptomlar əlavə edilə bilər. Bu simptomların bir çoxu eyni anda şiddətli olarsa, allergik şok adlanan ən ağır vəziyyət yaranır.



### ANTİBİOTİKLƏR ƏN RİSKLİ DƏRMAN QRUPUDUR

İ.Hüseynli deyir ki, xroniki xəstəliklərin çoxalması insan orqanizmini daha da həssas edir: “Ötən həftə uşağın ölümü ilə bağlı Xırdalanda baş verən hadisədə məlum olub ki, evdə uşağa antibiotik tətbiq olunub. Antibiotiklər insan orqanizmində allergik reaksiyalara səbəb ola biləcək ən riskli dərman qrupudur. Dərman tətbiq olunmazdan öncə mütləq “prob” qoyulur, xəstənin dərmana reaksiyası, allergiyası olub-olmaması yoxlanılır. Bəzən həkim ev şəraitində müəyyən müalicə tətbiq edir. O zaman müxtəlif preparatlar - antibiotiklər təyin olunur, tibb bacısı heç bir “prob” qoymadan dərhal inyeksiya edir. Bu, artıq həkim və tibb bacısının səhlənkarlığı nəticəsində baş verən ölüm hadisəsidir”.

## İNSANLAR MAARİFLƏNDİRİLMƏLİDİR



Adil Qeybulla

İlqar Hüseynli

Dərmanların keyfiyyətsizliyi səbəbindən yaranan problemlərə gəldikdə isə, İ.Hüseynli deyir ki, standartlara uyğun istehsal olunmayan dərmanlar bəzən gözlənilməz reaksiyalara səbəb olur: “Tərkibində təsiredici maddələr qeyri-adekvat olan və ya standartlara uyğun istehsal olunmayan dərmanlar bəzən gözlənilməz reaksiyalara səbəb olur. Dərmanlara nəzarət gücləndirilməlidir. İnsanlar allergik reaksiyaların təhlükəsi barədə məlumatlandırılmalı, təcili yardım prosedurları öyrədilməlidir. Bəzi hallarda həkimlər və tibb işçiləri pasiyentin allergik tarixçəsini tam araşdırmadan ona müəyyən preparatlar təyin edirlər. Xüsusilə, təcili tibbi müdaxilə zamanı pasiyentin dərmanlara qarşı həssaslığının araşdırılmaması faciəvi nəticələrə gətirib çıxara bilər. Kompleks yanaşanda ölümə səbəb olan faktor anafilaktik şok və buna qarşı dərhal tibbi yardım göstərilməməsi səbəbindən baş verir”.

# ŞƏRƏFLİ VƏ KƏDƏRLİ HƏYAT HEKAYƏSİ

Dostları musiqinin ən müxtəlif janrlarında əsər yazan bəstəkar Oqtay Rəcəbovun fədakar insan olduğunu deyirlər. O, narazılığı olanda da, xəstələnəndə də pozitivliyini qoruyub saxlayan insan olub.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanın mədəniyyətini, musiqisini dünyaya tanıdan sənətkarlardan olub Oqtay Rəcəbov. Bəstəkar, alim və pedaqoq kimi şərəfli ömür yaşayıb. Musiqinin ən müxtəlif janrlarında əsərlər yazıb, bir çox musiqi dərsliklərinin müəllifi olub. Şirin, qəlboxşayan mahnıları Şövkət Ələkbərova, Mirzə Babayev, Flora Kərimova, Yalçın Rzazadə kimi müğənnilərin ifasında səslənib. "Onun mahnılarında unudulmaz melodiyalar vardı", - deyən sənət dostları ilə birlikdə görkəmli bəstəkarı 5 aprel - doğum günündə anırıq.

### "TƏƏSSÜF Kİ, LAYİQLİ QİYMƏTİNİ ALMADI"

"Baxmayaraq ki, yaş fərqimiz çox idi, amma biz dost olmuşuq", - deyə Əməkdar İncəsənət xadimi Baba Vəziroğlu mərhum bəstəkarı xatırlayır: "Təsəvvür edin, mənim 17 yaşım vardı. Bəstəkar Telman Hacıyevlə dostluq edirdim. Bir gün Telman müəllimin evində idim, Oqtay müəllim də gəldi. "Maestro, təzə bir mahnı yazmışam", - deyə pianoda "Sevərsənmi?" mahnısını çaldı. "Bəs sözləri hanı?"- deyə Telman soruşdu. "Bu, hələ melodiyasıdır, sözlərini yazdıracam", - dedi. Telman müəllim də "Niyə yazdırırsan, şair oturub böyründə", - dedi. Mən də utancaq kənd uşağı idim, birinci kursda oxuyurdum. "Yazaram", - dedim. Dedilər ki, elə indi çıx balkona, yaz gətir. Mənim Oqtay Rəcəbovla ilk mahnım elə orada yarandı. Həmin mahnını ölməz müğənnimiz Şövkət Ələkbərova oxudu. Sonra da çox tanınmış müğənnilər ifa elədi. Bizim Oqtay müəllimlə yaradıcılıq işbirliyimiz və dostluğumuz bir gündə başladı". B.Vəziroğlu deyir ki, mərhum bəstəkarla sonuncu işi Akademik Musiqili Teatrda səhnəyə qoyulan "Əliqulu bu gün evlənir" tamaşası olub: "Biz Oqtay müəllimlə o tamaşaya 22 mahnı yazdıq. Ancaq bizim məmurlar tamaşanın səhnəyə qoyulmasını o qədər uzatdılar ki, Oqtay Rəcəbov təqdimatı görmədi. Biz onunla İkinci Vətən müharibəsinə həsr olunan "Zəfər" oratoriyasını da yazdıq. Təəssüf ki, pandemiya dövründə itirdiyimiz dəyərli insanlardan biri də Oqtay müəllim oldu..." B.Vəziroğlu mərhum bəstəkarın qarşılaşdığı haqsızlıqları da xatırlayır: "Oqtay Rəcəbov İncəsənət Gimnaziyasının banisi idi. Xeyli istedadlı gənci təmənnasız olaraq gimnaziyaya cəlb etmişdi. "Sən gimnaziyanın qapısına qədər gətirirsən, qalan işlər uşaqdan asılıdır", - deyirdi. Oqtay müəllim gimnaziya üçün əlindən gələni edirdi. Mükafatı da o oldu ki, şərləyib işdən çıxardılar. Onun "Xalq artisti" fəxri adı almasına da mane oldular. Təəssüf ki, Oqtay müəllim layiqli qiymətini almadı. O, şərəfli, eyni zamanda kədərli bir həyat yaşadı".

### "ONSUZ GÜNLƏRİMİZƏ "HEYİF" DEYİRƏM!"

Xalq artisti Flora Kərimova bəstəkarın ən gözəl mahnılarının ifaçısı olub. Onların işbirliyi uzun illər davam edib. İndi müğənni "Kimin ağlına gələrdi ki, nə vaxtsa o olmadan haqqında danışacağam", - deyə kədərlə bildirir: "Oqtay mənim musiqi taleyimdə əvəzi olmayan bəstəkarlardan olub. Onun "Necə unudum səni", "Sevgilim", "Apar məni", "Sirli könül", "Həyat eşqi", "Vətən torpağı", "Araz bayatıları" və s. mahnılarını böyük şövqlə oxumuşam. Bu mahnıları öz yazdığım mahnı, qəlbimin səsi kimi ifa etmişəm. İndi Oqtaydan danışanda səsim də batır. Onsuz günlərimizə "heyif" deyirəm!"




Flora Kərimova


Baba Vəziroğlu


Sevinc Nuruqızı

## SƏHNƏ HƏLLİNİ GÖZLƏYƏN ƏSƏRLƏR

Tanınmış uşaq yazıçısı, şair, publisist Sevinc Nuruqızı xatırlayır: "2007-ci il idi. "Təhsil" nəşriyyatında işə başlamışdım. İlk tanış olduğum müəllif bəstəkar Oqtay Rəcəbov oldu. Orta ümumtəhsil məktəbləri üçün "Musiqi" dərsliyi üzərində işləyirdik. O, musiqi dərsliyinin müəllifi, mən isə redaktoru idim. Şən, səmimi, zarafatcıl idi. Xırda narazılığı olanda da, xəstələnəndə də pozitivliyini qoruyub saxlayar, zarafatından qalmazdı. Düşünürdün ki, yəqin belə gözəl cəhətlərə sahib olduğuna görə mahnıları şirin, həzin, qəlbəyaxındır. Bu mahnıları hər kəs öz qəlbinin nəğməsi kimi ifa edə bilər. Bəzən mahnılarının taleyindən söhbət açardı. Onu dinlədikcə əmin olardın ki, hər mahnıda insan ömrünün bir parçası əbədiləşib. "Necə unudum səni?" kimi lirik sevgi nəğməsini kimə ünvanlandığından danışırdı. O qızın nəyə görə onu seçmədiyindən təəssüflənər, ilk sevgisini yaşadığı illərə dönərdi. Həmişə yeni ideyalarla dolu olardı Oqtay müəllim. Hər dəfə yeni təkliflə gələr, deyərdi ki, bu mövzuda nə yaza bilərsən? Yazardım, oxuyan kimi sevinərdi, "səndən yaxşı mənim istədiyimi anlayan yoxdur", - deyərdi. Onunla birgə işimiz təkcə dərslik, dərs vəsaitləri ilə bitmədi. Uşaqlar üçün əhəmiyyətli yeni əsərlər yarandı. Həmişə uşaq musiqisində irihəcmli musiqi əsərlərinin yoxluğundan gileylənirdi. Bir gün məndən xalq nağılı əsasında yazılmış libretto istədi. "Sərçə" nağılını seçdik. Bu nağıla yazdığım libretto əsasında "Sərçəciyin sərgüzəştləri" adlı uşaq operasını bəstələdi. 2015-ci il mayın 28-də Respublika Günü və 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Bəstəkarlar İttifaqında operanın təqdimatı baş tutdu. "Sərçənin sərgüzəştləri" eyni zamanda, həm "Bənövşə" uşaq xorunun, həm də Respublika İncəsənət Gimnaziyasının şagirdlərinin ifasında lentə alındı". S.Nuruqızı "Bahar qız əfsanəsi" operasının yaranmasını da xatırlayır: "Bir dəfə mənə "Gəl, baharın gəlişini, Novruz adət-ənənələrimizi incələyəcək əsər yazaq. Sən librettosunu, mən musiqisini... Bu da olsun xalqa Novruz töhfəsi..." - dedi. Maraqlı süjeti olan əsər üzərində birlikdə işlədik. Beləcə, hələ də tam səhnə həllini tapmamış "Bahar qız əfsanəsi" operası yarandı. İncəsənət Gimnaziyasının şagirdləri musiqi müsabiqəsinə təqdim etmək üçün operadan 20 dəqiqəlik parça hazırladılar. Amma operanın tam səhnələşdirilməsi çox böyük əmək və vəsait tələb edir. Təəssüf ki, bu günədək reallaşmayıb".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
5 APREL ŞƏNBƏ 2025



# İNKİŞAF ÜÇÜN ƏLA FÜRSƏT




Azərbaycanda “Barselona” futbol akademiyasının açılması ölkə futboluna təkan verməlidir. Bu, ölkə futbolu üçün yaxşı bir şansdır və ələ düşən əla fürsətdən ən yaxşı şəkildə yararlanmaq lazımdır.

“Barselona” futbol akademiyası, yaxud daha çox tanınan adı ilə “La Masia” dünyanın ən prestijli futbol akademiyalarından biridir. Bura futbolun sadəcə fiziki deyil, eyni zamanda intellektual tərəfdən də inkişaf etdiyini düşünən yanaşma tərzi ilə tanınır. “La Masia” əsl futbolçu konveyeridir, oradan hər il onlarla oyunçu Kataloniya klubunun əsas komandalarına yüksəlir, eyni zamanda dünyanın digər klublarına satılır. “Barselona” çətin zamanlarında məhz akademiya oyunçularının hesabına stabilliyini qoruyub saxlaya bilir.

**“BARSA” AKADEMİYASININ ÖZƏLLİKLƏRİ**

“Barselona” akademiyası digərlərindən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Bunlardan başlıcası strategiyanın davamlılığıdır. “Barsa” akademiyası uşaq futbolundan peşəkar komandaya qədər eyni sistemə bağlı qalmağı vacib hesab edir. Bu yanaşma futbolçuların uzunmüddətli inkişafına şərait yaradır və əsas komandaya tam uyğunlaşmış oyunçuların yetişməsini təmin edir. Oyun üslubu tiki-takaya uyğunlaşdırılır. Akademiya oyunçulara qısa paslarla oynamaq bacarığını aşılamağa önəm verir. Bu isə müasir futbolun əsas trendlərindəndir. Sistem “Barselona”nın oyun üslubunun əsasını təşkil edir və komandaya beynəlxalq səviyyədə böyük uğurlar qazandırır.

Strategiya üst səviyyədə tətbiq olunur və özünü doğrultmaqdadır. Akademiya dünya futboluna yüzlərlə ulduz futbolçu bəxş edib. Lionel Messi, Xavi və Andres İnyesta kimi “La Masia” yetirmələri 2010-cu ildə “Qızıl top”a namizəd olan yekun “3-lük” idi. Təkcə bu fakt akademiyanın böyüklüyünü ifadə etmək üçün yetərlidir. Üstəlik hər il davamlı şəkildə akademiyadan həm klubun əsas komandasına yüksələn, həm də digər klublara gedən onlarla oyunçu üzə çıxır.

## AZƏRBAYCAN ÜÇÜN ŞANS

Son illərdə klub öz modelini dünya miqyasında yaymağa başlayıb. Hazırda “Barselona” futbol akademiyaları ABŞ, Yaponiya, Birləşmiş Ərəb Əmirlikləri, Meksika və bir çox Avropa ölkəsində mövcuddur. Onlardan biri də yaxın gələcəkdə Azərbaycanda fəaliyyətə başlayacaq. Ötən ay “Barselona”nın prezidenti Xuan Laporta ölkəmizdə səfərdə olub. Səfər çərçivəsində Prezident İlham Əliyev Laportanı qəbul edib. Görüşdə Azərbaycanda “Barselona” futbol akademiyasının yaradılması ilə bağlı sənədin imzalanacağı bildirilib, akademiyanın gələcək fəaliyyətinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycanda uşaq futbolunun inkişafı sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Bir neçə gün əvvəl isə “Barselona”nın Avropa, Orta Şərq və Afrika üzrə akademiyalarının rəhbəri Mark Sabate Ferre, həmçinin klubun Avropa və Afrika üzrə akademiyalarının texniki koordinatoru Bernat Vilya Ay Qorris Azərbaycana səfər ediblər. Onlar AFFA-nın baş katibi Cahangir Fərəcullayevlə görüşüblər.

## LAYİHƏNİN ƏHƏMİYYƏTİ

Azərbaycan futbolunda əsas problemlərdən biri məhz uşaq futboludur. Daha doğrusu, akademiyaların fəaliyyətinin zəif olması. Hazırda “Neftçi”, “Qarabağ”, “Sabah” kimi klublar uşaq komandalarına böyük diqqət ayırırlar, Tovuz və Gəncədə akademiyalar açılıb. Lakin istənilən effekti əldə etmək mümkün olmayıb. Əvvəllər “Xəzər Lənkəran”, “Bakı” kimi klublar oyunçu yetişdirilməsində lokomotiv rolunu oynayıblar. Onların fəaliyyətini dayandırmasından sonra “Qəbələ” bu işi davam etdirirdi. Lakin bu klubun da maliyyə vəziyyətinin pisləşməsindən sonra yenidən boşluq yaranıb. Qısası, ölkəmizdə uşaq futbolu ilə bağlı vəziyyət yumşaq desək, ürəkaçan deyil.

İndi vəziyyəti dəyişmək üçün münbit şərait yaranıb. Belə bir məqamda ölkəmizdə “Barselona” kimi futbolçu yetişdirilməsində üst səviyyə bacarığa malik klubun akademiyasının açılması obrazlı ifadə etsək, səhrada su tapmaq kimidir. Bu, Azərbaycanda peşəkar futbol sisteminin inkişafı, gənc istedadların üzə çıxması, ümumən futbolumuzun beynəlxalq bazara açılması üçün əhəmiyyətli olacaq.

## YERLİ MƏŞQÇİLƏRİN DƏ İNKİŞAFINA TƏKAN VERƏCƏK

Belə bir akademiyanın mövcudluğu orada futbolun sirlərinə yiyələnən uşaqlarla yanaşı, yerli məşqçilərin də inkişafına təkan verəcək. Eyni zamanda, digər klublarımızın “Barsa” ilə əməkdaşlıq qurmaq perspektivi olacaq. Belə bir akademiyanın mövcudluğu Avropa klublarının Azərbaycan futboluna, istedadlı uşaqlara marağının yaranmasına səbəb olacaq və gənclərimiz diqqət mərkəzinə düşəcəklər. Bu isə futbolçularımızın ölkə xaricinə çıxmasını asanlaşdıracaq. Qurulacaq sistemli və davamlı iş isə yerli futbolçuların legioner həyatı yaşamaqdakı çətinliklərini azaldacaq.

Əlbəttə, bunlar akademiya ilə bağlı ilkin düşüncələrdir. Əsas məsələ “La Masia” sisteminin uğurlu tətbiqidir. Bu isə həm də futbola yanaşmamızın dəyişilməsi ilə mümkün ola bilər. İstənilən halda, belə irimiqyaslı bir layihənin həyata keçirilməsi ölkə futboluna təkan verməlidir. Bu, ölkə futbolu üçün yaxşı bir şansdır və ələ düşən əla fürsətdən ən yaxşı şəkildə yararlanmaq lazımdır.